36_27 IYUl-QARA.qxd 10/17/2024 10:08 PM Page 1

UNİKAL

№38 (2220) 18 oktyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# İstanbulda "3+3" görüşü:

## Region ölkələri yeni düzən qurmağa çalışır




Səh.9

## Nəcməddin Sadıkov məhkəməyə çağırıldı

*Müdafiə Nazirliyinin bu dəfə 42 milyonluq mənimsəmədə ittiham olunan sabiq zabiti Zahid Niftəliyevin məhkəmə araşdırması davam edir.*

*"Unikal" verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən budəfəki iclasda "Şlyapa Zahid" ləqəbli məşhur zabit sərbəst ifadə verib. Qısaca məlumat üçün deyək ki, Zahid Niftəliyev "AtaBank" ASC-yə saxta məlumatlar təqdim etməklə 42 milyon 470 min 885 manat kredit götürüb. O, həmin krediti təyinatı üzrə istifadə etməməklə banka xüsusilə külli miqdarda ziyan vurmağa görə mühakimə edilir, amma ittihamları qəbul etmir. İlk baxış iclasında onun vəkili törədilən cinayətdə Müdafiə Nazirliyinin sabiq baş qərargah rəisi Nəcməddin Sadıkovu...*

Səh.9

## "Sosial problemlərin həlli üçün daha çox vəsaitə ehtiyac var"



*REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, 2025-ci ilin dövlət büdcəsini əvvəlkilərdən fərqləndirən cəhətlərdən, sosial müdafiə və sosial təminat xərcləri üçün nəzərdə tutulan artımların hansı istiqamətlərə xərclənə biləcəyindən, minimum əməkhaqqının, təqaüdlərin nə qədər...*

Səh.4

## Monopolistlərin ağlasığmaz soyğunçuluğu



*2024-cü ilin yanvar-avqust aylarında Azərbaycana 50 milyon 38.95 min dollar dəyərində 48 min 130 ton düyü idxal olunub. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə həcm baxımından 17.3% və ya 7092 ton, dəyər baxımından isə 36.4% və ya 13 milyon 353 min dollar çoxdur.*

Səh.5

## Adil Kərimli ümidləri doğrultmur



*Son zamanlar mədəniyyət Nazirliyinin keçirdiyi tenderlərlə bağlı mediada müxtəlif iddialar səsləndirilir. Bu iddialardan anlaşılan odur ki, sabiq nazir Əbülfəs Qarayevin zamanında dövlət satınalmalarının obyektivliyi, şəffaflığı və effektivliyi ilə bağlı şübhələr aktuallığını qoruyur, necə deyərlər...*

Səh.7

# Aygün Kazımovanın gündəm olan geyimi bu qiymətədir



***Xalq artisti Aygün Kazımova son günlər geyindiyi qızılı dəsti ilə gündəm olub.***

Çəhrayı saçları ilə daha bir yeniliyə imza atan Pop kraliça qızılı ətək və pencəyini yaşıl topla tamamlayıb.

"Kim_hardan_geyinir" səhifəsi Kazımovanın libasının qiymətini yazıb. Bildirilib ki, məşhur dəst gürcü dizayner Aleksandr Axalkatsişviliyə məxsusdur. Pencək 1425 manat, ətək isə 1249 manatdır.

# Azərbaycanlı aktrisanın "Mədəniyyətsiz" dediyi Afra imiş



***"Yalı çapkını"nda çəkiləndə hamının mənə qarşı marağı var idi. Xanımlar mənə yaxınlaşıb deyirdi ki, hamı səndən danışır, biz səni daha böyük layihələrdə görəcəyik. Çəkiliş meydançasında 100 nəfərə qədər insan var idi. Mənə dedilər ki, heç kim onların diqqətini çəkmir, amma haradan keçirsənsə, hamı sənə baxır və maraqlanır".***

Axşam.az xəbər verir ki, bu sözləri aktrisa Ülviyyə Xəlilbəyova "Xəbərin var?" proqramında deyib. Sənətçi "Yalı çapkını" serialında çəkilməsindən danışıb. O, ekran işinin baş rol ifaçısı Afra Saraçoğlunun onu qısqanması haqda suallara belə reaksiya verib: "Burada sevərək izlədiklərimi orada gördəndə dedim ki, necə fərqlidirlər. Baş rol ifaçısı Mərd Ramazanoğlunu (Ferit obrazını oynayır - red.) sevmirdim, yekəxana, eqolu təəssürat bağışlamışdı. Amma gördüm ki, çox yetkin, orada görsəndiyi kimi şorgöz deyil, səmimidir. Amma Afranı (serialda Seyran obrazını oynayır - red.) çox sevirdim, orada gördüm ki, fərqlidir. Mənə yaxınlaşdı və eqosunu göstərdi. Bu haqda danışmaq istəmirəm, yoxsa onun danışıq tərzini deyərdim. Həddindən artıq çox kaprizli aktrisa idi".

Qeyd edək ki, Ülviyyə sözügedən serialda bir neçə saniyəlik epizodik rolda yer alıb. O, daha sonra ekran işi ilə bağlı suala "Əslində ürəyim doludur, danışardım, amma müqaviləyə imza atmasaydım. Bir onu deyim ki, aktrisalardan birinin eqosu, hər kəsi alçaltması, mədəniyyətsiz davranışları və ikrah hissi oyadacaq dərəcədə iyrənc söyüşlə danışığına üzüldüm" cavabını vermişdi.

Xəlilbəyova hazırki açıqlaması ilə həmin adını çəkmədiyi aktrisanın Afra Saraçoğlu olduğunu təsdiqləyib.



# Xatirə ilə Vasif küsülüdür: "O, bir az inciyəndir"

***Müğənni Xatirə İslam Əməkdar artist Vasif Məhərrəmli ilə küsülü olması xəbərlərinə münasibət bildirib.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda "Tarixin bir günü" proqramında danışıb. Xatirə aparıcı Tarix Əliyevin "Bütün duet ortaqlarınla verilişlərə qatıldın, amma Vasiflə yox. Aranızda nə baş verir" sualına belə cavab verib: "Aramızda heç nə baş vermir. Vasif bir az inciyəndir. Bizim duetlərimiz köhnədir. Yeni duet olanda mütləq. Köhnə duetlə eyni şey alınır".

Qeyd edək ki, ifaçılar bir müddət əvvəl aralarında mübahisə olduğunu açıqlamışdı.

# "Gəlinindən ayrı yaşayan qayınanalar ağıllıdırlar" - Xuraman Şuşalı

***"Çoxlu toylar və xınalar edirik, orada qayınanalar və gəlinlərlə ünsiyyətdə oluruq. Düşünürəm ki, bir mətbəxdə bir xanım olmalıdır. Gənc ailə quranlar ayrı yaşamalıdır. Əlbətdəki, hər şey imkandan asılıdır. Amma nə qədər də bacarırlarsa, ayrı yaşamalıdırlar. Bu həm yaşla, həm də başla əlaqəlidir".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Xuraman Şuşalı "Elgizlə izlə verilişində deyib. O, gəlinindən ayrı yaşayan qayınanaların ağıllı addım atdıqlarını bildirib:

"Böyüyün məsləhəti yaxşıdır. Amma böyük böyüklüyündə, kiçik kiçikliyində qalsın, aradan pərdə götürülməsin. Bir yerdə yaşayanda anayla bala arasında da söz-söhbət olur. Bu mənim anamla da aramda olub. Gəlinindən ayrı yaşayan qayınanalar çox ağıllı qadındırlar. Problemin varsa, özün həll et, uşağını özün saxla. Mən nə qədər toy aparmışam, amma qarşıma iki qadın çıxıb ki, gəlinini öz qızı kimi sevib. İdeal qayınnana və gəlin yoxdur".

# "12 dəqiqəyə 28 min dollar şabaş yığdım" - Kərim Abbasov



***Müğənni Kərim Abbasov toyda ən çox yığdığı şabaşın məbləğini açıqlayıb.***

Axşam.az xəbər verir ki, bu barədə sənətçi Xəbərin var?" verilişində danışıb. O, 12 il bundan əvvəl Moskvada keçirilən yəhudi məclislərinin birində 28 min dollar şabaş yığdığını bildirib:

"28 min dollar şabaş yığmışdım. Röya ilə ifa edəndən sonra bizi qonaqların yanına rəqsə dəvət etdilər və böyük bir dairəyə aldılar. O qədər şabaş verdilər ki, səhərə qədər o pulu saydıq. Bu, 10-12 dəqiqə arasında baş verdi. Röya həmin toya yaxşı məbləğə gəlmişdi, 45 min dollar pul almışdı. Röyanın doğum gününə təsadüf etdiyindən toya gəlmək istəmirdi".

# Bergüzarın serialı nə vaxt yayımlanacaq?

***Baş rollarını Bergüzar Korel və Mehmet Günsür paylaşacağı "Annem Ankara" serialı noyabrda izləyicilərə təqdim olunacaq.***

"Unikal" xəbər verir ki, ekran işinin rejissoru Faruk Teber 3 bölüm sonra öz yerini həmkarl Can Ulkaya verəcək.

36_27 IYUl-QARA.qxd 10/17/2024 9:54 PM Page 3






## Ordumuzun yeni bölmələrində xidmət başlayıb

***Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində Azərbaycan Ordusunda yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə xidmət edən yüksək intellektə malik istedadlı gənc əsgərlərlə görüş keçirilib.***

Müdafiə Nazirliyindən “Unikal”a bildirilib ki, tədbirdən əvvəl Heydər Əliyev Muzeyində Ümummilli Liderin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyulub, ruhuna dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbər heyəti, İntellektual qabiliyyətli bölmələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və onların valideynlərinin iştirak etdiyi tədbirdə çıxış edənlər hərbi xidmətkeçmə ilə bağlı tətbiq olunan yeni konsepsiya ilə bağlı ətraflı məlumat verib.

Qeyd olunub ki, yeni yaradılan konsepsiyaya əsasən təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda onların karyera inkişafına töhfə vermək məqsədilə, hərbi xidmətdə olan istedadlı çağırışçılar gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra Milli Müdafiə Universitetinin tərkibində yaradılmış İntellektual qabiliyyətli bölmələrin tərkibində öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunmaqla hərbi xidmətlərini davam etdirəcəklər.

Milli Müdafiə Universitetinin tərkibində yaradılmış İntellektual qabiliyyətli bölmələrin şəxsi heyəti adından çıxış edən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu onlar üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib və bu bölmələrdə xidmət etməklə öz peşə sahələri üzrə faydalı iş təcrübəsi qazanacaqlarını əminliklə qeyd edib. Ali təhsil müəssisələrində öyrəndikləri bilikləri xidmət müddətində praktiki icra etməklə daha da təkmilləşdirəcəklərinə və Vətənə faydalı olacaqlarına söz verib.

Hərbi qulluqçuların ailə üzvləri çıxışlarında ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində gənclərin fərdi inkişafı naminə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Azərbaycan Ordusunda yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinə qəbul imtahanından bütün ixtisaslar üzrə 600 və yuxarı bal toplamış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası”nın şərtlərinə uyğun olan qaliblər, həmçinin cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi (“Times Higher Education (THE) World University Rankings” və ya “Academic Ranking of World Universities” (Shanghai)) 500-cü yerdən aşağı olmayan sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçılar xidmət edəcəklər.

# Elman Rüstəmova daha bir şok....

## Sabiq baş bankirə məxsus olduğu deyilən bankdan 101 milyon manat məbləğində əmanət çıxarılıb

***Əhali və şirkətlər Azərbaycanın bank sektorunda böyük paya sahib olan “Bank Respublika” dan əmanətlərini geri çəkməyə başlayıb.***

Sosial şəbəkələrdəki “Tipik iqtisadçı ekspert” səhifəsi bankların açıqladığı maliyyə hesabatına əsasən xəbər yayıb ki, 9 ay ərzində “Bank Respublika”dan 101.3 milyon manat əmanət çıxarılıb.

Qeyd edək ki, “Bank Respublika”nın aktivləri ötən il 34.5% və ya 546.1 milyon manat artaraq 2 milyard 130.9 milyon manat təşkil edib. Bu dövrdə bankın kredit portfeli (müştərilərə verilmiş kreditlər) 22% artaraq 1 milyard 174.2 min manata çatıb.



Bu dövrdə “Bank Respublika”nın cəmi öhdəlikləri 1 milyard 975.2 milyon manat təşkil edib ki, bu da illik müqayisədə 34.7% və ya 508.8 milyon manat çoxdur. Hesabat dövründə bankın depozit portfeli də 49.5% və ya 508.8 milyon manat artaraq 1 milyard 443.7 milyon manata yüksəlib.

Uzun müddətdir, media bu bankın Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmova məxsus olduğunu yazır. Qeyd olunur ki, rəsmən səhmdarları olan Quliyevlər ailəsi E.Rüstəmovla yaxın münasibətlərə malikdir və onun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər. Bura Rüstəmova aid bəzi maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair aid edilir...

“Bank Respublika”nın əsas səhmdarı Natiq Quliyev vaxtilə yerli mətbuata bildirib ki, bankın nizamnamə kapitalında onun payı 46%, ümumilikdə Quliyevlər ailəsinin payı isə 84% təşkil edib. O, Elman Rüstəmovun bankla əlaqəsini təkzib edib.

Sabiq baş bankirə məxsus bankdan cari ilin ilk 9 ayında 101 milyon manat çıxarılması ötən ay yayılan məlumatlar fonunda xüsusilə maraq doğurur. Xatırladaq ki, keçən ay onun biznes imperiyasına aid edilən “Səba” ASC-nin ciddi maliyyə problemlərinin yarandığına dair ehtimallar bir az da qüvvətlənmişdi. Belə ki, sirkətin səhmdarlarının oktyabrın 28- i tarixinə təyin edilmiş növbədənkənar ümumi yığıncağının gündəliyinə ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salındığı barədə xəbər yayılmışdı.

Həmin məlumata görə, İdarə Heyəti qərarında yığıncağın gündəliyinə törəmə şirkətlərdəki “Səba” ASC-yə məxsus payların satılması da daxil edilib.

Ümumi yığıncağın gündəliyinə daxil edilən məsələlər arasında aşağıdakılar diqqət çəkirdi: “Səba” ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət “Chicken Pro.” MMC-yə kredit öhdəliyinin ötürülməsinə dair əqd barədə; “Səba” ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət “Chicken Pro.” MMC-yə məxsus əmlakın ipoteka ilə yüklü edilməsinə dair əqd barədə; “Səba” ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət “Chicken Pro.” MMC-nin nizamnamə kapitalındakı “Səba” ASC-yə məxsus payların satılmasına dair əqd barədə; “Səba” ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət “Qarabağ Taxıl” MMC-nin birgə təsisçiliyi ilə yaradılmış “Qarabağ Toxum” MMC-nin nizamnamə kapitalındakı “Qarabağ Taxıl” MMC-yə məxsus payların satılmasına dair əqd barədə; “Səba” ASC-nin birgə təsisçiliyi ilə yaradılmış “Biləsuvar Aqro” MMC-nin nizamnamə kapitalındakı payların satılması barədə; “Səba” ASC-nin nizamnamə kapitalındakı minoritar səhmdarlara məxsus səhmlərin geri alınması barədə; “Səba” ASC-nin Nizamnaməsinin yeni redaksiyası barədə.

Xatırladaq ki, ”Səba”nın aktivləri yuxarıda da haqqında bəhs edilən Quliyevlərə (37,5% - Hidayət Quliyev, 37,5% - Natiq Quliyev) və Azərbaycan İnvestisiya Holdinqinə (25%) məxsusdur.

”Səba” ilə bağlı xəbər yerli KİV-də adı çəkilən holdinqin, eləcə də sabiq baş bankirin çətin maliyyə durumuna düşdüyü kimi qiymətləndirilmişdi. Əks halda, şirkət özünün əhəmiyyətli aktivlərini niyə satışa çıxarsın ki?!

İndi isə ”Bank Respublika”dan 101 milyon manatlıq əmanətin çıxarılması Elman Rüstəmovun biznes imperiyasında işlərin qaydasında getmədiyinə dair ehtimalları daha da qüvvətləndirir.

Vurğulamaq yerinə düşər ki, 27 illik baş bankirliyi boyunca Rüstəmov özünə kifayət qədər böyük biznes şəbəkəsi yaratmağı bacarıb. Elman müəllim Mərkəzi Bankın rəhbəri postunu itirdikdən sonra isə çoxlarını bir sual düşündürürdü: Baş nazirin müşaviri kimi formal vəzifəyə təyin olunması ona öz biznesini qorumağa imkan verəcəkmi? Axı ölkə təcrübəsində tutduğu yüksək postu itirən, bir növ, ”gözdən düşən” məmurların şəxsi bizneslərini itirməyə başlamasının çoxsaylı örnəkləri var.

İndi isə öncə ”Səba Broyler” ətrafında baş verənlər, ardınca da ”Bank Respublika” ilə bağlı yayılan xəbər oxşar prosesin Rüstəmovla bağlı yaşanacağı yönündə təxminlərin ortaya çıxamsı ilə nəticələnib.

**Toğrul Əliyev**

# İstanbulda "3+3" görüşü:
## Region ölkələri yeni düzən qurmağa çalışır

***Türkiyədə "3+3" formatının (Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya, İran) növbəti görüşü keçiriləcək. Bu tərəflərin sayca üçüncü görüşüdür. Bundan əvvəl birinci toplantı 2021-ci ilin dekabrında xarici işlər nazirlərinin müavinləri səviyyəsində Moskvada, ikinci görüş isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra üçüncü görüş isə oktyabrın 18-də İstanbulda keçiriləcək.***

Qeyd edək ki, Xarici işlər nazirlərinin toplantının sonunda qəbul etdikləri birgə bəyanatda münaqişələrin BMT Nizamnaməsi əsasında sülh yolu ilə həlli, suverenliyə, siyasi müstəqilliyə, ərazi bütövlüyünə hörmət, tanınmış beynəlxalq sərhədlərin toxunulmazlığı, daxili işlərə etməmək, təhdid və ya güc tətbiqinin qadağan edilməsi, insan hüquqlarına hörmətlə yanaşmağın vacibliyi vurğulanıb. Bəyanatda ölkələr arasında konstruktiv dialoq imkanlarının yaradılması və qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında "3+3" Məşvərətçi Regional Platforması kimi platformaların əhəmiyyəti də xüsusi vurğulanıb.

Rusiyanın "RIA Novosti" agentliyi görüşlə bağlı bir sıra vacib məqamları öyrənib. Agentliyin Türkiyədən olan mənbəsinin sözlərinə görə, "3+3" görüşü çərçivəsində Ankara Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması prosesinə dəstək ifadə edəcək.

Türkiyənin xarici işlər naziri Hakan Fidan sabah İstanbulda keçiriləcək platforma danışıqlarında ölkənin səylərinin Qafqazda sülh və sabitliyin bərqərar olmasına yönəldiyini bəyan edəcək. Görüş zamanı, həmçinin problemlərin həllində regional məsuliyyətin ən effektiv metod olduğu vurğulanacaq.

"3+3" iştirakçıları münaqişələrin sülh yolu ilə həllinin vacibliyini vurğulayan birgə bəyanat qəbul edəcəklər. Nazirlər münaqişələrin sülh yolu ilə həllinin, suverenliyə, ərazi bütövlüyünə hörmətin, sərhədlərin toxunulmazlığı prinsipinin, daxili işlərə qarışmamanın vacibliyini vurğulayacaqlar.

Bəyanatın, mətnində həmçinin regional iqtisadi əməkdaşlığın zəruriliyinə, etimadın möhkəmləndirilməsinə və rifahın artırılmasına diqqət ayrılması planlaşdırılır.

Siyasi icmalçılar hesab edirlər ki, Cənubi Qafqazda sülh, təhlükəsizlik, əməkdaşlıq həm də regionda marağı olan başqa güclərin də mənafeyinə zidd deyil. Azərbaycan və Türkiyə istisna olmaqla "3+3" formatının iştirakçıları heç də hamısı eyni mövqeyi təmsil etmirlər. Ancaq beynəlxalq arenadakı mövcud vəziyyət tərəflərin müzakirələr aparmasını daha zəruri edir. Odur ki, bu görüşlərdən qıcıqlanmaq Cənubi Qafqazda sabitliyə, əməkdaşlığa, təhlükəsizliyə ziyan vurar.




Sözsüz ki, qarşıdakı dönəmlərdə "3+3" formatının daha müsbət regional platformaya çevrilməsi mümkündür. Bu format bütün gözləntiləri ilə reallaşsa, o zaman ABŞ və Qərbin Cənubi Qafqaza kobud müdaxiləsinin qarşısı tam alınmasa da, xeyli dərəcədə azalacaq. Cənubi Qafqaz ölkələri bu regionun ümumi problemlərini kənar müdaxilə olmadan, ortaq maraqlar çərçivəsində həll etmək şansı qazanmış olarlar. Yəni, region ölkələri "biz öz məsələlərimizi özümüz həll edəcəyik" mesajını vermiş olacaqlar.

Onu da qeyd edək ki, Rusiya Cənubi Qafqazda davamlı sülh və sabitliyə nail olmaq üçün ölkələr arasında əməkdaşlığın koordinasiyası üçün "3+3" formatını effektiv bir mexanizm olaraq nəzərdən keçirir. Bu mövzu ilə bağlı Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyanat verib. M.Zaxarovanın bildirdiyinə görə, bu platforma regionda qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün bir fürsətdir. Xüsusilə ticarət-iqtisadi, nəqliyyat-logistika və mədəni-humanitar sahələrdə əməkdaşlıq potensialının böyük olduğu vurğulanır. Rusiya, İran, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstanı birləşdirən bu platforma bölgədəki münaqişələrin həlli və sabitliyin təmin edilməsi üçün zəruri addım kimi qiymətləndirilir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bununla bağlı "Unikal"a açıqlamasında bildirib ki, bu, çox vacib və əhəmiyyətli görüşdür. Onun sözlərinə görə, regionda olan ölkələr öz gələcəklərini milli maraqlar çərçivəsində həll etməyə üstünlük verməlidirlər:

"Regiona aidiyyəti olmayan qurumlar, təşkilatlar, ölkələr müdaxilə edəndə burada tamamilə başqa abhava və vəziyyət yarana bilər. Bu nöqteyi-nəzərdən ən optimalı "3+3" formatıdır. Bu formatın içərisində açıq şəkildə bütün məsələləri müzakirə etmək lazımdır. Cənubi Qafqaz regionunda sülhün ən yüksək səviyyədə təmin olunması üçün Azərbaycan, Gürcüstan, o cümlədən Ermənistan dərk etməlidir ki, ikitərəfli, birbaşa əlaqələr, ya da "3+3" formatındakı əlaqələr bu ölkələr üçün daha böyük imkanlar yarada bilər, nəinki kənar şəxslərin bura müdaxiləsi. Hansısa başqa ölkələrin Cənubi Qafqaz regionuna nüfuz salmaq istəyi heç də yaxşı nəticələr vermir.

Biz Fransanın, Avropa Birliyinin cəhdlərini görürük. Ancaq Cənubi Qafqaz ətrafında olan 3 qonşu ölkənin bu prosesdə iştirakı regionda lazım olan geosiyasi balansı yarada bilir. Belə ki, Cənubi Qafqaz ölkələri və onların ətrafında olan ən yaxın qonşular bura aiddir. "3+3" formatı həddindən artıq vacib və əhəmiyyətlidir. İnanıram ki, gələcəkdə Gürcüstan da bu formata qoşulacaq. Hazırda onlar maraq göstərmirlər. Amma gələcəkdə geosiyasi nöqteyi-nəzərdən bu da olacaq".

Politoloq Elxan Şahinoğlu deyib ki, Gürcüstan oktyabrın 18-də İstanbulda keçiriləcək "3+3" (Azərbaycan, Gürcüstan, Ermənistan + Türkiyə, Rusiya, İran) regional məsləhət platformasının üçüncü iclasında da iştirak etməyəcək.Onun fikrincə, Gürcüstan Rusiyaya etiraz əlaməti olaraq bu platformanın iclaslarında iştirak etmir: "Məntiqlə doğru qərardır, çünki Sənin torpaqlarını işğal edən və diplomatik münasibətlərin olmayan ölkə ilə bir masada necə otura bilərsən? Ancaq başqa məntiq də var. Gürcü oliqarx Bidzina İvanişvili və onun nəzarət etdiyi Gürcüstan hökuməti son vaxtlar Rusiya ilə münasibətlərin normallaşması yollarını arayır, Moskvaya yumşaq mesajlar göndərir, Tiflis eyni zamanda ABŞ və Avropa ölkələri ilə münasibətləri pisləşdirib. Belədirsə, İvanişvili məntiqlə İstanbuldakı toplantıya maraq göstərməli idi. Fikrimcə, İvanişvili Kremllə dialoqa maraq göstərsə də, hələ ki, bunu açıqaşkar edə bilmir, əks halda parlament seçkisi öncəsində Gürcüstan cəmiyyətinin dəstəyindən məhrum olar. İvanişvilinin nəzarət etdiyi hakim "Gürcü Arzusu" partiyası 26 oktyabr parlament seçkisində qələbə qazanarsa, bundan sonrakı dönəmdə "3+3" platformasında iştiraka maraq göstərəcək".

***A.Kəlbiyev***



# Nəcməddin Sadıkov məhkəməyə çağırıldı

***Müdafiə Nazirliyinin bu dəfə 42 milyonluq mənimsəmədə ittiham olunan sabiq zabiti Zahid Niftəliyevin məhkəmə araşdırması davam edir.***

"Unikal" verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən budəfəki iclasda "Şlyapa Zahid" ləqəbli məşhur zabit sərbəst ifadə verib. Qısaca məlumat üçün deyək ki, Zahid Niftəliyev "AtaBank" ASC-yə saxta məlumatlar təqdim etməklə 42 milyon 470 min 885 manat kredit götürüb. O, həmin krediti təyinatı üzrə istifadə etməməklə banka xüsusilə külli miqdarda ziyan vurmağa görə mühakimə edilir, amma ittihamları qəbul etmir. İlk baxış iclasında onun vəkili törədilən cinayətdə Müdafiə Nazirliyinin sabiq baş qərargah rəisi Nəcməddin Sadıkovu günahlandırıb. Deyib ki, 24 milyonun köçürüldüyü şirkət əslində müvəkkili Niftəliyevin, yox Sadıkovundur. Vəkil bu məsələlərə aydınlıq gətirməsi üçün Nəcməddin Sadıkovu məhkəməyə çağırıb.

Bu prosesdə "Şlyapa Zahid" də vəkilinin dediklərini təsdiq edib. İfadəsində deyib ki, Nəcməddin Sadıkovun xahişinə görə adına şirkət açılmasına razı olub. Amma şirkətin sonradan yeyinti məqsədilə istifadə edilməsindən məlumatsız olub: "Bir işlə bağlı Sadıkovun qəbuluna girmişdim. Söhbət əsnasında dedi ki, bəs bizə önəmli bir iş görmək üçün şirkət lazımdır. Mərhum vergilər naziri Fazil Məmmədov dövlət üçün müəyyən işlər görməli idi. Bu işləri reallaşdırmaq üçün də şirkət lazım idi. Məhz bu səbəbdən razı oldum. Fazil Məmmədov vəfat edəndən sonra bilmişəm ki, mənim üstümdən oyun oynayıblar".

Niftəliyev özü də məhkəmə zalından Nəcməddin Sadıkova müraciət yollayıb, ondan hər şeyi danışmasını istəyib: "Bankdan 42 milyon götürülüb. Bu qədər pulu mənə kim verə bilərdi? Oradan mənə 40 manat da çatmayıb. Deməm ki, Nəcməddin Sadıkov, ya Fazil Məmmədov yeyib. Amma onlar bilirdilər. Nəcməddin Sadıkovdan xahiş edirəm, gəlib danışsın".

"Amma sənədlərdə sizin imzalarınız var"-, dövlət ittihamçısı deyib. Niftəliyev bunu təsdiq edib. Onun sözlərinə görə, bankda imzalar atıb, amma pul söhbətindən xəbərsiz olub.

"Şlyapa Zahid" sonda Fazil Məmmədovun müşaviri olmuş Mahir Rəfiyevin otağında baş tutan toplantıdan söz açıb.

Məhkəməyə sədrlik edən hakim Novruz Kərimov bu yerdə iclası dayandırıb. Prosesin davamı qapalı keçirilib.

Qeyd edək ki, Z.Niftəliyev ötən il başqa cinayət işi üzrə külli miqdarda rüşvət almaqda təqsirli bilinərək 8 il 6 ay azadlıqdan məhrum edilib. Yeni cinayət işinə görə o, cəzaçəkmə müəssisəsindən istintaq təcridxanasına köçürülüb.

Onu da əlavə edək ki, xüsusilə külli miqdarda mənimsəmə cinayətində iştirakı araşdırılan digər şəxslərlə bağlı DTX-də cinayət işi ayrılıb.

36_27 IYUl-QARA.qxd 10/17/2024 9:57 PM Page 5



# Prezident bu qurumu ləğv etdi



***Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyəti ləğv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncama əsasən, Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - "Azərkontrakt" ASC) Azərbaycan Respublikasında daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması sahəsində səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (bundan sonra - SOCAR) tərəfindən həyata keçiriləcək.

ASC 2024-cü il dekabrın 1-dən ləğv ediləcək.

Nazirlər Kabineti "Azərkontrakt"ın digər səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı təkliflərini 1 ay müddətində hazırlayıb dövlət başçısına təqdim etməli, qazla bağlı müqavilələr üzrə hüquq və öhdəliklərinin, eləcə də bu sahədə fəaliyyətdən əldə edilmiş aktivlərinin, o cümlədən pul vəsaitlərinin SOCAR-a və onun strukturuna daxil olan qurumlara ötürülməsinin dekabrın 1-nə qədər təmin edilməsi üçün tədbirlər görməli, sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

İqtisadiyyat Nazirliyi "Azərkontrakt"ın balansında olan digər dövlət əmlakından istifadə ilə bağlı təkliflərini 1 ay müddətində hazırlayıb Prezidentə təqdim etməli, sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

SOCAR daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması ilə bağlı strukturuna daxil olan qurumlar arasında səlahiyyət bölgüsünü təmin etməli, sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

# COP29-a görə bəzi yollarda avtomobillərin hərəkət istiqaməti dəyişdiriləcək

***Bildirildiyi kimi, 2024-cü ilin oktyabrın 19-u gün ərzində və 19-dan 20-sinə keçən gecə saat 02.30-dan 05.30-dək COP29 tədbirinə hazırlıq məqsədi ilə paytaxtın bir sıra küçə və prospektlərində nəqliyyatın idarə edilməsi üzrə monitorinqlərin keçirilməsi üçün avtomobillərin hərəkət istiqaməti dəyişdiriləcəkdir.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı şəhər DYPİ və AYNA-nın birgə məlumat yayıb. Bildirilib ki, bu məqsədlə Hava Limanı şosesi, Heydər Əliyev prospekti, Neftçilər prospekti və Yusif Səfərov, Niyazi,




İstiqlaliyyət, Lermontov, Mikayıl Huseynov, Xəqani Rüstəmov, Teymur Elçin, Mehdi Hüseyn küçələrində avtomobillərin hərəkəti dəyişdiriləcəkdir. Hərəkət iştirakçılarından xahiş edirik ki, monitorinq müddətində həmin istiqamətlər üzrə hərəkətdə tətbiq olunacaq məhdudiyyətləri nəzərə alsınlar. Hərəkətin təşkili DYP əməkdaşları tərəfindən tənzimlənəcəkdir.

Heydər Əliyev hava limanına gedəcək vətəndaşlardan səfərlərini tətbirdən daha öncə planlamaları və alternativ yollardan istifadə etmələri xahiş edilr. Eyni zamanda bildiririk ki, 19 oktyabr gündüz saatlarında şatl avtobuslarının fəaliyyətinin monitorinqi ilə bağlı həyata keçiriləcək tədbirlər zamanı yollarda hər hansı bir məhdudiyyət tətbiq olunmayacaqdır.

Yollarda hərəkətin tənzimlənməsinə dair daha ətraflı məlumat DİN tərəfindən veriləcəkdir.

# Prokurorluq sabiq məmurlar barəsində hökmdən protest verdi

***Sabiq vəzifəli şəxslər barəsində hökmdən apellyasiya protesti verilib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"ın sorğusuna cavab olaraq bildirilib ki, bəzi xəbər saytları və sosial media səhifələrində "Bakı Nəqliyyat Agentliyi" Publik hüquqi şəxsin Yol hərəkətinin təşkili şöbəsinin müdir müavini vəzifəsində işləmiş Vüqar Hüseynov və həmin Agentliyin Yol hərəkətinin təşkili şöbəsinin sabiq əməkdaşı Hikmət Vəlizadənin barəsində müvafiq məhkəmə tərəfindən əməlin Cinayət Məcəlləsinin daha yüngül maddələrinə, yeni rüşvət almadan dələduzluğa tövsif edilərək ittihamın yüngülləşdirilməsi və onlara aşağı həddə cəza təyin edilməsi barədə məlumatlar yayılıb.

Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan ibtidai istintaqla Vüqar Hüseynov və Hikmət Vəlizadəyə Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2, 311.3.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar və külli miqdarda rüşvət alma), maddələrilə yekun ittiham elan edilib və barələrində həbs qətimkan tədbiri seçilərək cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 24.09.2024-cü il tarixli hökmü ilə təqsirləndirilən şəxslərin rüşvət almasına dair ittihamlar Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə təkrar və xeyli miqdar-



da ziyan vurmaqla dələduzluq) maddələrinə tövsif edilib və onların hər ikisi 2 (iki) il müddətə dövlət və yerli özünüidarəetmə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilməklə 3 (üç) il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilib.

Qeyd olunan hökmdən dövlət ittihamçısı tərəfindən oktyabr ayının 7-də apellyasiya protesti verilib.

# Livandakı səfirliyimizin əməkdaşları təxliyə edilib



***Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Livandakı səfirliyimizin təhlükəsizlik səbəbi ilə boşaldılmasına dair yayılan xəbərlərə münasibət bildirib.***

"Unikal" xəbər verir ki, XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, Livandakı səfirliyimiz öz fəaliyyətini davam etdirir.

"Livandakı səfirliyimiz öz fəaliyyətini davam etdirir, ancaq heyət qismən təxliyə olunub", - o qeyd edib.



# Ceyhun Bayramov Türkiyəyə getdi

***Oktyabrın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasına işgüzar səfərə yola düşüb.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun oktyabrın 18-də İstanbul şəhərində keçiriləcək "3+3" formatında görüşdə iştirakı və çıxışı nəzərdə tutulub.

Səfər çərçivəsində, həmçinin ikitərəfli görüşlərin keçirilməsi planlaşdırılır.

# Gəncə terrorlarında dəymiş ziyanın məbləği açıqlandı

***Gəncə şəhərinə edilən hücumlar nəticəsində dövlət mülkiyyətində olan 21 sayda daşınmaz əmlaka zərər yetirərək 14.126.682 manat maddi ziyan vurulub.***

"Unikal" xəbər verir ki, bu barədə Gəncəyə beşinci raket hücumunun dördüncü ildönümü ilə bağlı media üçün keçirilən brifinqdə çıxışı zamanı Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru Şahin Osmanov deyib.

"3.396 fiziki şəxsə məxsus 3.469 sayda daşınmaz əmlaka zərər yetirərək 72.407.444 manat, 85 fiziki şəxsə məxsus 92 nəqliyyat vasitəsinə zərər yetirərək 230.168 manat, 83 fiziki şəxsə məxsus sahibkarlıq



obyektlərinə zərər yetirərək 597.350 manat, 1 fiziki şəxsə məxsus kənd təsərrüfatı obyektinə zərər yetirərək 2400 manat olmaqla, ümumilikdə 3.565 fiziki şəxsə məxsus daşınmaz və daşınar əmlaklara zərər yetirərək 73.237.362 manat, 1 hüquqi şəxsə məxsus 1 daşınmaz əmlaka zərər yetirərək 285.946,87 manat, 11 hüquqi şəxsə məxsus sahibkarlıq obyektlərinə (o cümlədən avadanlıq, alət və digər inventarlara) zərər yetirərək 60.205 manat olmaqla, ümumilikdə 12 hüquqi şəxsə məxsus daşınmaz və daşınar əmlaklara zərər yetirərək 346.151 manat olmaqla nəticədə xüsusi mülkiyyət üzrə ümumilikdə 3.577 fiziki və hüquqi şəxslərə məxsus daşınmaz və daşınar əmlaklara zərər yetirərək 73.583.514 manat olmaqla ümumilikdə, Gəncə şəhəri ərazisində 21 sayda dövlət mülkiyyətinə, 3.565 fiziki şəxsə və 12 hüquqi şəxsə ümumilikdə xüsusilə külli miqdar təşkil edən 87.710.196 manat məbləğində qəsdən maddi ziyan vurulub",- deyə Ş.Osmanov bildirib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Prezident COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.***

"Unikal" xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Qeyd edildi ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq



Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verildi.

Dövlət başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış oldu.

Azərbaycan Prezidentinə COP29 Yaşıl Zonada görülən işlər barədə də geniş məruzə edildi.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxdı. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılıb. Bildirildi ki, konfransın işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

# Vilayət Eyvazov COP29-la əlaqədar kollegiya iclası keçirdi

***Daxili İşlər Nazirliyində (DİN) COP29 ilə əlaqədar Kollegiya iclası keçirilib.***

Bu barədə "Unikal"a nazirlikdən məlumat verilib. Məlumata görə, iclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının müdafiəsi kimi mühüm sahələri əhatə etdiyini, habelə COP29 tədbiri ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin xüsusi plan əsasında ardıcıllıqla yerinə yetirildiyini, beynəlxalq əhəmiyyətli həmin tədbirə hazırlıq işlərinin davam etdiyini bildirib.

2024-cü ilin 9 ayının yekunları ilə bağlı diqqətə çatdırılıb ki, Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 24586 cinayətin 89,8 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər, qəsdən adam öldürmələr və ona cəhdlər, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, soyğunçuluqlar, informasiya texnologiyalarından istifadə edilməklə və qrup halında törədilənlər, yetkinlik yaşına çatmayanların və əvvəllər məhkum olunmuşların hüquqazidd əməlləri, ailə münaqişəsi zəminində baş verənlərin sayı bütövlükdə 2192 fakt azalıb.

Axtarışa elan edilmiş 6703 nəfərdən 84 faizi tutulub, habelə ağır və xüsusilə ağır cinayətlər törətməkdə şübhəli bilinən 390 nəfərdən ibarət 158 cinayətkar qrup zərərsizləşdirilib.

Qanunsuz dövriyyədən 4 ton 81 kiloqram narkotik vasitə çıxarılıb və bu əməllərə görə 5735 nəfər saxlanılıb.

Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı görülən işlər və profilaktik tədbirlərin effektivliyi də öz müsbət nəticələrini göstərib və müvafiq hadisələrin sayı 173 fakt, qəzalarda həlak olanların sayı 107 nəfər, xəsarət alanların sayı 120 nəfər azalıb.

Gündəlikdəki məsələlər üzrə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri məruzə edərək, narkotiklərlə mübarizə, gənclərin Polis Akademiyasında təhsilə təşviqi, kadrların hazırlığı, ixtisasının artırılması və peşəkarlıqlarının yüksəldilməsi, COP29 tədbiri ilə əlaqədar hazırlıq işlərinin gedişi və digər istiqamətlərdə görülmüş işlərdən, qarşıya qoyulmuş tapşırıqların icra vəziyyətindən, əldə edilən nəticələrdən danışıblar.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında ictimai asayişin və təhlükəsizliyin təmini ilə bağlı qanunla müəyyən edilmiş vəzifələrin layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə qorunub-saxlanıldığını və bir sıra istiqamətlərdə inkişaf etdirildiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali qayğısı sayəsində daxili işlər orqanlarında peşəkar kadr özəyinin formalaşdığını, infrastrukturun inkişaf etdiyini, müasirləşdiyini, müvafiq fəaliyyətin Nazirliyin xüsusi təyinatlı təhsil müəssisələrində, o cümlədən Polis Akademiyasında da həyata keçirilərək yeni tədris korpuslarının, yataqxanaların, laboratoriyaların və digər zəruri obyektlərin inşa edildiyini, hüquqşünas, kriminalist, informasiya təhlükəsizliyi və digər mütəxəssis ixtisasları üzrə təhsilə namizədlərin seçimində nəzərəçarpan irəliləyişlərin əldə olunduğunu, Akademiyada təhsil almaq arzusunda olan orta məktəb şagirdlərinin sayının ilbəil artdığını, bu istiqamətdə aparılan təşviqatın davam etdirilməsinin vacibliyini, habelə Dövlət Başçısının şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə həssas münasibətindən irəli gələn müsbət dəyişiklikləri diqqətə çatdırıb.

Bununla yanaşı, mediada, sosial şəbəkələrdə, qəbullarda qaldırılan ədalətli və obyektiv məsələlərin təhlilinin aparıldığını və fəaliyyətdə nəzərə alındığını vurğulayan daxili işlər naziri bütün müraciətlərə operativ qaydada



baxıldığını, qanunauyğun qərarların qəbul edildiyini, təşəbbüskarlara hüquqlarının izah olunduğunu diqqətə çatdırıb.

Eyni zamanda, avtomobilləşmənin sürətlə artdığı bir dövrdə paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlər çərçivəsində yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyat axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının, sürücü intizamının daha da yüksəldilməsinin, ümumən müvafiq sahədə tədbirlərin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Xidməti fəaliyyətdə olan nöqsan və çatışmazlıqlara da toxunaraq onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, insanları qayğılandıran, onları narahat edən məsələlərlə bağlı bütün müraciətlərə həssaslıqla yanaşılmasını, vətəndaş məmnunluğunun təmin olunmasının daim diqqətdə saxlanılmasını tələb edib.

Yekunda general-polkovnik Vilayət Eyvazov şəxsi heyətin bundan sonra da məsul vəzifələrin və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcəyinə, ölkədə sabitliyi, əmin-amanlığı, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcəyinə əmin olduğunu bildirib.



# İrəvan Gəncəyə raket hücumlarını araşdırmalıdır!

***Ermənistan, Beynəlxalq Cinayət Məhkəməsinin üzvü kimi, 2020-ci ildə Gəncəyə edilmiş raket hücumlarını araşdırmalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sosial şəbəkədə yazıb.

"17 oktyabr 2020: Gəncəyə ikinci ən ölümcül ballistik raket hücumu olub. Ermənistanın ballistik raket hücumları ilə dinc sakinləri qətlə yetirməsi təsadüf və ya yan təsir deyil, məqsədyönlü terror və qətl siyasətidir. BCM üzvü kimi Ermənistan bu hərbi cinayətləri araşdırmalıdır", - o qeyd edib.

# Universitetlərdə hansı fənlər ləğv oluna bilər? - Deputatdan açıqlama

***"Bizim gördüyümüz odur ki, təhsil sahəsində bəzən aparılan kor-təbii islahatlar təhsilin səviyyəsinin qalxmasına deyil, aşağı düşməsinə aparıb çıxarıb. Bu gün problemi açıq-aydın görürük".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, təhsil sisteminə yenidən baxmalıyıq: "Təhsil sisteminin dəyişməsinə, milli istiqamətə yönəlməsinə baxmalıyıq. Düşünmürəm ki, bizim təhsil sistemində çıxarılası fənlər var. Hər bir fənn təhsil sistemimizdə önəmlidir, bunlar təsadüfən ora salınmayıb. Belə ki, araşdırılıb, öyrənilib və onun əsasında salınıb. Tədris ilində bir semestrdə 5-6 fənn tədris olunur. Əslində bu fənlər tələbələr üçün yetərli bilik almağa bəs etmir. Bir müddət əvvəl tarixi, fəlsəfəni azlatdıq. Bunun fəsadını yaşayırıq. Bunları necə təkmilləşdirə biləcəyimiz barədə düşünməliyik. İngilis dilini orta məktəbdə 11 il, sonra isə universitetdə bir neçə il keçirik. Amma tələbələr xarici dili bilmir. Kimsə düşünürsə ki, hansısa fənni çıxarmaqla bu düzələcək, mən belə hesab etmirəm. Bununla bağlı qərarlar hansısa fərdin rəyi əsasında qəbul edilməli deyil. Bu, ciddi araşdırılmalı və onun əsasında proses həyata keçirilməlidir".

Deputat düşünür ki, universitetlərdən hansısa fənləri çıxarmaq yox, əlavə fənlər daxil edilməlidir: "Bugünkü fənlər, biliglər, məlumatlar yetərli deyil. Bu məsələ çox həssas və önəmlidir. Biz bu məsələdə diqqətli olmalıyıq. Tələskənliyə yol verərək sonradan peşman olmalı deyilik. Bəzi sahələr üzrə yeni fənlərə ehtiyac var ki, bu barədə ciddi düşünməliyik".

Qeyd edək ki, bir neçə gün əvvəl keçirilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev çıxışı zamanı ali təhsil müəssisələrində bəzi fənlərin keçirilməməli olduğunu bildirib.

***Anar Kəlbiyev***

36_27 IYUI-QARA.qxd 10/17/2024 9:58 PM Page 7



# "COP29 Azərbaycan" dayanıqlılıq üzrə onlayn təlim proqramını ictimaiyyətə təqdim edib




***COP29 Azərbaycan Əməliyyat Şirkəti iqlim dəyişmələrinə qarşı mübarizədə dayanıqlı inkişafın və qlobal ekoloji öhdəliklərin yerinə yetirilməsinin təşviqi istiqamətində fəaliyyətini davam etdirir.***

"Unikal" xəbər verir ki, bu çərçivədə, COP29 Azərbaycan ƏŞ tərəfindən yeni onlayn dayanıqlılıq təlim proqramı geniş ictimaiyyətə təqdim edilir. COP29 Azərbaycan Əməliyyat Şirkətinin müvafiq sahələr üzrə ixtisaslaşmış mütəxəssisləri tərəfindən tərtib edilən təlim proqramı ekoloji və sosial dayanıqlılıq, müyəssərlik, inklüzivlik və digər müxtəlif mövzularda məlumatlılığın artırılmasına xidmət edir. Proqramın məqsədi COP29 ərəfəsində dayanıqlı və inklüziv gələcəyin qurulması üçün hər bir vətəndaşın rolunu vurğulamaqla əsas anlayış və bilikləri təmin etmək, qeyd edilən istiqamətdə ictimai maarifləndirməyə töhfə vermək, eləcə də COP29 konfransı və konfransdan sonra müvafiq sahədə vərdişlərin formalaşdırılması və tətbiqinin təşviqidir.

Onlayn təlim proqramından yararlanmaq istəyən hər kəs "Eduaz" onlayn tədris platformasının müvafiq bölməsi üzərindən qeydiyyatdan keçərək bu təlimlərə qoşula bilər. Qeydiyyat haqqında video təlimatı bu link vasitəsilə izləyə bilərsiniz. Təlim proqramı ilə əlaqədar yarana biləcək suallarla bağlı +994 12 535 29 28 nömrəsi ilə əlaqə saxlanıla bilər.

# Müdafiə xərcləri artırılır: Bu istiqamətləri əhatə edəcək



***Xəbər verdiyimiz kimi, büdcənin müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılaraq 8 milyard 396,3 milyon manata çatdırılıb. Buna əsas səbəb Ermənistanın genişmiqyaslı militarizasiya siyasətinə cavab tədbirlərinin görülməsi ehtiyacıdır.***

Müqayisə etsək, Azərbaycanın artan müdafiə və təhlükəsizlik xərcləri Ermənistanın bütün dövlət büdcəsi xərclərinin 70%-nə bərabərdir. Bəs görəsən, müdafiə sahəsindəki artımlar hansı istiqamətləri əhatə edə bilər?

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Aydın Mirzəzadə "Unikal"a açıqlamasında bildirib ki, Ermənistan sürətlə silahlanmaqda davam edir.

Deputat qeyd edib ki, bu ölkə ilə sülh müqaviləsi imzalanmayıb: "Ermənistanı silahlandırmaqda, onu yenidən militarist ölkə kimi saxlamaqda maraqlı olan xarici ölkələr və qüvvələr var. Belə olan halda Azərbaycan öz müdafiə qabiliyyətini zəiflədə bilməz. Ermənistanın hazırda aldığı silahlar müasir olduğuna görə, ona cavab tədbiri kimi Azərbaycan tərəfində ondan daha güclüsü olmalıdır. Bu baxımdan, müdafiə və milli təhlükəsizlik sahəsinə ötənilkindən daha çox vəsait ayırmaq lazım gəlir".

Artırılan vəsaitin hansı sahələri əhatə edəcəyinə gəlincə, A.Mirzəzadə bunun müdafiə sektronun özünün həll edəcəyi məsələ olduğunu söyləyib: "Azərbaycan üçün vacib olan təhlükəsizliyimizin, müstəqilliyimizin, suverenliyimizin qorunmasıdır. Azərbaycan Silahlı Qüvvələri və təhlükəsizlik xidmətimiz bunu layiqincə yerinə yetirir".

***Anar Kəlbiyev***

# Türkiyə MN Azərbaycanı təbrik etdi

***Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanı 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə müşaviri Zeki Aktürk mətbuat konfransında deyib.

"Qardaş Azərbaycanın sabah böyük qürurla qeyd edəcəyi 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününü indidən təbrik edir, əziz Azərbaycanla bundan sonra da bir və bərabər olacağımızı bir daha vurğulayırıq", - o qeyd edib.

# "Sosial problemlərin həlli üçün daha çox vəsaitə ehtiyac var"

## Natiq Cəfərli: "Bununla bağlı hansısa addımların atılması mümkün olsa idi, cəmiyyətdə kifayət qədər müsbət reaksiyalar doğurardı"

***REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, 2025-ci ilin dövlət büdcəsini əvvəlkilərdən fərqləndirən cəhətlərdən, sosial müdafiə və sosial təminat xərcləri üçün nəzərdə tutulan artımların hansı istiqamətlərə xərclənə biləcəyindən, minimum əməkhaqqının, təqaüdlərin nə qədər artırılacağından və Naxçıvan Muxtar Respublikasına ayrılan dotasiyanın azaldılmasından danışıb.***



***- Natiq bəy, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib. Sizcə, gələn ilin dövlət büdcəsini builkindən fərqləndirən əsas cəhətlər hansılardır?***

-Gələn ilin dövlət büdcəsi ilə son 10 ilin büdcəsinin parametrlər nöqteyi-nəzərdən, institusional və fəlsəfi baxımdan heç bir fərqi yoxdur. Yenə də Azərbaycan Dövlət Neft Fondu (ARDNF) büdcənin əsas sponsorudur. Büdcənin az qala yarısını Dövlət Neft Fondundan transferlər təşkil edəcək. Xərc istiqamətlərində də fundamental dəyişikliklər yoxdur. Həmişə xərc istiqamətləri indiki parametrlərə uyğun olaraq bölüşdürülüb.

***-Növbəti ilin büdcə layihəsində sosial müdafiə və sosial təminat xərcləri üçün 4 milyard 811 milyon 769,907 min manat vəsait nəzərdə tutulub. Bu, 2024-cü illə müqayisədə 420 milyon 339,411 min manat və ya 9.6% çoxdur. Sosial sahə üçün nəzərdə tutulan bu artım hansı istiqamətlər üzrə xərclənəcək?***

-Sosial sahə üçün ayrılan vəsaitin istiqaməti bəllidir. Bu sahədə xərclərlə bağlı 10 faizə yaxın artım nəzərdə tutulub. Yaxşı olardı ki, müharibə veteranlarının müavinəti artırılsın. Müharibə veteranlarının aylıq 80 manat müavinəti ciddi müzakirələrə səbəb olmuşdu. Ola bilər ki, bu istiqamətdə artım olsun. Bu məbləğin nə qədər artırıla biləcəyini indidən söyləmək çətindir. Amma bunun təqribən 20 faizdən çox artırılaraq 100 manata çatdırılması mümkündür. Ümumilikdə, sosial problemlərin həlli üçün daha çox vəsaitə ehtiyac var. Uzun zamandır uşaq pulu məsələsi müzakirə olunur, amma həll edilmir. Bu da sosial layihədir. Bununla bağlı hansısa addımların atılması mümkün olsa idi, cəmiyyətdə kifayət qədər müsbət reaksiyalar doğurardı. Eyni zamanda təqaüd və maaşlar da artırılacaq.

***-Məlum olduğu kimi, noyabrın 1-dək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən minimum əməkhaqqı və minimum pensiyanın artırılması ilə bağlı təkliflər təqdim olunacaq. Siz bu iki istiqamət üzrə artımların nə qədər olacağını düşünürsüz?***

-Prezidentin tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi təkliflər hazırlayıb və noyabr ayında büdcə müzakirələri zamanı Milli Məclisə təqdim olunacaq. Belə ki, minimum əməkhaqqının və təqaüdlərin də artırılması gözlənilir. Bu artımın 8-10 faiz civarında olacağını düşünürəm. Yəni, kəskin, nəzərəçarpacaq artım nəzərdə tutulmur. Burada xroniki ardıcıllıq var. Belə ki, hər il maaş və təqaüdlər 8-10 % civarında artırılır. Məncə, bu konsepsiyaya uyğun hərəkət olunacaq. Davamlı şəkildə bundan sonrakı illərdə də bu addımların atılması nəzərdə tutulur. Hazırda minimum əməkhaqqı 345 manatdır, artımla təqribən 380-390 manat civarında ola bilər.

***-Gələn ilin büdcəsindən Naxçıvan Muxtar Respublikasına veriləcək dotasiya (transfertin yuxarı həddi) 320 milyon 529 min manat olacaq. Bu il verilən dotasiya isə 336 milyon 460 min manat olub. Belə ki, dotasiyanın həcmi 15 milyon 931 min manat, yaxud 4,7 faiz azalıb. Bu azalma nə ilə bağlıdır?***

-Naxçıvan Muxtar Respublikasına ayrılan dotasiyanın 15 milyon azalması ciddi rəqəm deyil. Bunu elə də nəzərəçarpacaq azalma hesab etmirəm. Çox güman ki, artıq Naxçıvanın özünün büdcəyə daxilolmaları, muxtar respublikada vergilərin yığılmasında müəyyən artımlar var deyə, dotasiyanın 15 milyon manat azaldılması nəzərdə tutulur.

***Anar Kəlbiyev***

# Təcili tibbi yardım xidməti ödənişli olacaq? - Açıqlama

***Yaxın gələcək üçün əhaliyə göstərilən təcili tibbi yardım xidmətinin ödənişli olması nəzərdə tutulmur.***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov deyib. O bildirib ki, belə məsələ gündəmdə yoxdur.

V.Qurbanov xatırladıb ki, əhaliyə göstərilən təcili tibbi yardım xidməti tam ödənişsizdir: "Bu gün üçün dövlətin bu sahədə əsas hədəfi əhalinin tibbi xidmətə əlçatanlığını təmin etməkdir. Düzdür, dünyanın bir sıra ölkələrində bu xidmət ödənişlidir. Bu da xidmətdən əsassız istifadənin qarşısını almaq üçün tətbiq olunur. Vətəndaşlar bilməlidir ki, xidməti əsassız məşğul etmək həm dövlət büdcəsindən, həm də icbari tibbi sığorta üzrə nəzərdə tutulan fondun maliyyəsindən sui-istifadə hallarına səbəb ola bilər. Bununla belə, hazırda ödənişli xidmət məsələsi gündəmdə yoxdur".

36_27 IYUI-QARA.qxd 10/17/2024 10:00 PM Page 8



# Monopolistlərin ağlasığmaz soyğunçuluğu

## Dünyada 2 manata olan bir məhsulu bizdə əhaliyə 3 dəfə baha satırlar - İlginc təfərrüatlar...

***2024-cü ilin yanvar-avqust aylarında Azərbaycana 50 milyon 38.95 min dollar dəyərində 48 min 130 ton düyü idxal olunub. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə həcm baxımından 17.3% və ya 7092 ton, dəyər baxımından isə 36.4% və ya 13 milyon 353 min dollar çoxdur.***

Hesabat dövründə Azərbaycana gətirilən düyünün 1 tonunun orta idxal qiyməti 16.3% artaraq 1039.6 dollara bərabər olub. Bu göstərici ötən ilin müvafiq dövründə 893.9 dollar təşkil edib. 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycana 36 milyon 685 min dollar dəyərində 41 min 38 ton düyü gətirilib.



Hesablama aparsaq görərik ki, ölkəyə idxal olunan düyünün 1 kiloqramının dəyəri 1 manat 80 qəpikdir. Buna baxmayaraq, mağazalarda düyünün qiyməti bir kilo üçün 4-12 manat arası dəyişir.

Düyünün idxaldan sonra bu qədər baha olmasının səbəbi nədir?

Mövzu ilə bağlı iqtisadçı-ekspert Razı Abbasbəyli Publika.az-a açıqlama verib. Onun sözlərinə görə, dünya birjasında 2023-cü ildən etibarən düyünün qiymətində ciddi şəkildə bahalaşma baş verib. Sitat: " Azərbaycan düyü ilə bağlı öz daxili tələbatını ödəyə bilməyən və daha çox idxaldan asılı ölkə hesab edilir. Son zamanlar Azərbaycanda çəltik əkinləri ilə bağlı təsərrüfatların sayında 4 %-ə qədər artım müşahidə edilir. Buna baxmayaraq, daxili bazara çıxarılan düyü demək olar ki, əsas tələbin ən yaxşı halda 25-30%-ni ödəyir. Dünya bazarlarında düyünün qiymətinin bahalaşması əlbəttə ki, Azərbaycanın daxili bazarında da qiymətlərə öz təsirini göstərir".

Ekspert diqqətə çatdırıb ki, dünya bazarındakı bahalaşmaya görə Azərbaycanda pərakəndə satış nöqtələrində qiymətlər kifayət qədər yüksəkdir. Sitat: "Bütün bunlara baxmayaraq, Azərbaycanın daxili bazarında satılan düyünün faktiki olaraq qiyməti real bazar dəyərindən çoxdur. Yəni rəqabət mühiti olmadığına görə, əsasən inhisarçılığın mövcud olması nəticə etibarı ilə də daxili bazarda təxminən 30-40% arasında süni qiymət artımına gətirib çıxarır. Ölkəmizdə düyü idxalçılarının sayının az olması, eyni zamanda müvafiq dövrlər istisna olmaqla ölkəyə düyü idxalı ilə bağlı bir sıra gömrük rüsumlarının qüvvədə olması faktoru da var".

Qeyd edək ki, Azərbaycanda müxtəlif məhsulların qiymətlərinin dünya bazarlarındakı qiymətlərdən xeyli yüksək olmasının başqa örnəkləri də var. "Unikal" olaraq bir müddət öncə yazmışdıq ki, ölkədəki kərə yağı bazarında bu məhsulun idxal qiyməti ilə onların müştəriyə satış qiyməti arasında böyük fərq var. Daha acınacaqlısı odur ki, həmin fərq hər il artmaqdadır. Belə ki, 10 il əvvəl marketlərdə satılan xarici kərə yağının qiyməti ilə həmin yağın idxal qiyməti arasında cəmi 58% fərq var idisə, hazırda bu fərq 100%-i keçib, yəni 2 dəfədən artıqdır. Onu da vurğulamışdıq ki, məsələn, 2021-ci ildə Azərbaycana ümumilikdə 71 milyon 922 min 190 dollar dəyərində 13 min 696 ton 590 kiloqram kərə yağı idxal edilib. İdxal edilən kərə yağının hər kiloqramı 5,25 dollar və ya 8,92 manat təşkil edib. Amma bu dövrdə xaricdən idxal olunan kərə yağının 1 kiloqramı mağaza və ticarət şəbəkələrində 16,50-18,05 manata satılıb. Kərə yağının orta qiyməti isə 16,41-17,89 manat arasında olub. Göründüyü kimi, 10 il öncə yağın qiymətinin gömrükdən marketə qədər artımı 58% təşkil etdiyi halda son bir neçə ildə bu, 100 faizi ötüb. Əslində 58 faizlik fərq də yüksək bahalaşma kimi görünə bilər. Lakin görünür, həmin vaxt inhisarçılar daha insaflı olublar...

"Unikal"ın yeni araşdırması zamanı başqa maraqlı məqamlar da ortaya çıxıb. Misal üçün, bu ilin ilk 8 ayı ərzində Azərbaycana xarici ölkələrdən 22 min 177,6 ton ət idxal olunub. Rəsmi məlumatlara görə, idxal olunan ətin 1 kiloqramının orta gömrük dəyəri 2,2 dollar (3,8 manat) olub.

Məlumat üçün bildirək ki, Azərbaycana xaricdən əsasən dondurulmuş toyuq əti və dondurulmuş iribuynuzlu heyvan əti gətirilir. Dondurulmuş toyuq ətinin 1 kiloqramının orta gömrük dəyəri 1,7 dollar (2,9 manat), dondurulmuş iribuynuzlu heyvan ətinin 1 kiloqramının orta gömrük dəyəri isə 4 dollar (6,9 manat) təşkil edir.

Lakin hər iki ət məhsulunun idxal qiyməti ilə əhaliyə satış qiyməti arasında ən azı 3 dəfə fərq var.

Bir sözlə, Rəqabət Məcəlləsi qüvvəyə minib, ölkədə inhisarçılığa qarşı mübarizə aparacaq yeni qurum yaradılıb, ancaq bu, hələlik yerli bazara təsir göstərməyib, qısası, monopolistlər hələ ki, iş başındadırlar...

***Toğrul Əliyev***

# Bakıda bu bələdiyyələr birləşəcək - Siyahı



***Bakıda bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələr yaradılacaq.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" qanun layihəsində əksini tapıb. Paytaxtda birləşəcək bələdiyyələr aşağıdakılardır:

**Xəzər rayonu üzrə:**

- Mərdəkan və Şağan bələdiyyələrinin əhatə etdiyi Mərdəkan və Şağan qəsəbələrində Mərdəkan bələdiyyəsi.

**Qaradağ rayonu üzrə:**

- Çeyildağ, Sanqaçal və Ümid bələdiyyələrinin əhatə etdiyi Çeyildağ, Sanqaçal və Ümid qəsəbələrində Sanqaçal bələdiyyəsi;
- Korgöz, Qızıldaş və Puta bələdiyyələrinin əhatə etdiyi Korgöz, Qızıldaş, Puta və Şonqar qəsəbələrində Qızıldaş bələdiyyəsi.

**Pirallahı rayonu üzrə:**

- Çilov-Neft Daşları, Gürgən və Pirallahı bələdiyyələrinin əhatə etdiyi Çilov, Gürgən, Neft Daşları və Pirallahı qəsəbələrində Pirallahı bələdiyyəsi.

**Səbail rayonu üzrə:**

- Bibiheybət və Səbail bələdiyyələrinin əhatə etdiyi Səbail rayonunda (Badamdar bələdiyyəsinin ərazisini çıxmaqla) Səbail bələdiyyəsi.

# Vüqar Qurbanov bu şöbəyə müdir təyin etdi

**Sabunçu Tibb Mərkəzində yeni təyinat olub.**

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov əmr imzalayıb.

Əmrə əsasən, Orxan Hacıyev Sabunçu Tibb Mərkəzinin Terapiya şöbəsinin müdiri vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, O.Hacıyev bu təyinatadək Müdafiə Nazirliyinin Hərbi hospitalında çalışıb.

***Murad İbrahimli***

# Azərbaycan və Çin arasında aviadaşımaların perspektivləri müzakirə edilib

***"Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti Samir Rzayev ilə Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao arasında görüş keçirilib.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Görüş çərçivəsində Azərbaycan və Çin arasında aviadaşımaların inkişafı müzakirə edilib, həmçinin iki ölkə arasında sərnişin axınının artmasının müsbət dinamikası vurğulanıb.

Tədbirdə qeyd olunub ki, hazırda AZAL Bakı-Pekin-Bakı marşrutu üzrə həftədə iki dəfə uçuşlar həyata keçirir. Bununla yanaşı, 2025-ci ildən etibarən bu marşrut üzrə uçuşların tezliyinin həftədə üç dəfəyə çatdırılması planlaşdırılır ki, bu da sözügedən istiqamətdə artan tələbatın ödənməsinə zəmin yaradacaq.

Bundan əlavə, tərəflər AZAL-ın Çinə uçuş coğrafiyasının daha da genişləndirilməsi perspektivlərini, həmçinin Quançjou və Şanxay kimi böyük şəhərlərə aviareyslərin açılması imkanlarını müzakirə ediblər. Bu, həm ölkələr arasında əməkdaşlığı gücləndirəcək, həm də sərnişinlər üçün əlavə imkanlar açacaq.

Bakının Çin və Avropa arasında mühüm tranzit mərkəzi kimi roluna xüsusi diqqət yetirilib. Aviadaşımaların inkişafı həm turist axınının artmasına, həm də Azərbaycanın beynəlxalq sərnişin və yük daşımalarında tranzit rolunun gücləndirilməsinə töhfə verəcək.

# Naxçıvanda seçki dairəsinin sədri vəfat edib

***Naxçıvan Muxtar Respublikasının 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsinin sədri Əzim Əzimov vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə deputat Ülviyyə Həmzəyeva sosial şəbəkədə məlumat paylaşıb.

O qeyd edib ki, bir neçə gündür komada olan Ə.Əzimov dünyasını dəyişib.

# Azərbaycana tam elektrikli təcili yardım avtomobilləri gətiriləcək



***”Azərbaycana 5 ədəd tam elektrikli təcili yardım avtomobili gətiriləcək”.***

”Unikal” xəbər verir ki, bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinin təkmilləşdirilməsi və inkişaf etdirilməsinə dair keçirilən brifinqdə deyib.

O bildirib ki, müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 80 ədəd təcili tibbi yardım avtomobilinin satın alınması məqsədilə dövlət satınalmalarına başlanılıb.

V.Qurbanov vurğulayıb ki, satın alınması nəzərdə tutulmuş avtomobillər texniki spesifikasiyasına görə sadə, differensiallı, standart və reanimobil təcili tibbi yardım maşınları olacaq: ”Bunlardan 5 ədədi tam elektrikli avtomobillərdir. Tam elektrikli təcili tibbi yardım avtomobillərinin texniki spesifikasiyasına gəlincə, onların daxili təchizatına tibbi avadanlıqlarla təminat daxildir”.

TƏBİB sədri qeyd edib ki, 2024-cü il istehsallı ambulanslar sürətli şarj olunma qabiliyyəti, həyəcan işıqlanma siqnalları sistemi, tibbi təyinatlı cihaz, avadanlıqlarla təchizat üçün funksionallıq, eləcə də arakəsmə və dolablarla təchiz edilmə kimi xüsusiyyətlərə malik olacaq.

# Əcnəbilərin olduğu yer üzrə qeydiyyatı ilə bağlı tam rəqəmsal xidmət olacaq




***İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ”digital.azerbaijan” brendi altında ölkədə rəqəmsallaşmanın genişlənməsini və müxtəlif dövlət qurumları tərəfindən təqdim olunan rəqəmsal xidmətlərin istifadəsini təşviq etməyə davam edir.***

”Unikal” xəbər verir ki, bu xidmətlər və təşəbbüslər ölkədə rəqəmsal keçidin sürətlənməsinə və vətəndaşların, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət xidmətlərindən rahat və rəqəmsal formada yararlanmasına dəstək verir.

Dövlət Miqrasiya Xidməti tərəfindən təqdim olunan növbəti belə xidmət vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyat prosesini tam rəqəmsal formada həyata keçirirlər. Bu xidmətdən istifadə etməklə əcnəbilər ölkəyə gəlişləri zamanı heç bir fiziki məkana getmədən onlayn şəkildə olduqları yer üzrə qeydiyyatdan keçə bilərlər.

Qeydiyyat üçün əcnəbi ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində (Qazaxıstan Respublikasının vətəndaşları 30 gün ərzində) Dövlət Miqrasiya Xidmətinin elektron portalına daxil olaraq müraciət etməlidir. Belə ki, https://e-regv2.migration.gov.az/Unregistered/Application linkinə keçid etməklə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ad, soyad, sərhədkeçmə sənədi, qeydiyyat ünvanı və qəbul edən tərəf barədə məlumatları qeyd edərək asan qaydada olduğu yer üzrə qeydiyyata alına bilərlər.

Qeydiyyat prosesi zamanı yaranan suallar Xidmətin 24 saat 3 dildə fəaliyyət göstərən 919-Çağrı mərkəzi tərəfindən operativ şəkildə cavablandırılır.

Qeyd edək ki, Azərbaycan Respublikasında 15 gündən artıq (Qazaxıstan Respublikasının vətəndaşları 30 gündən artıq) müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, yeni olduğu yerə gəldiyi vaxtdan 5 iş günü ərzində Miqrasiya Məcəlləsinin 21.2-21.5-ci maddələrində nəzərdə tutulmuş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınmalıdır. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeydiyyata alındığı mənzilin (yaşayış sahəsinin) sahibinə məxsus digər mənzildə (yaşayış sahəsində) müvəqqəti qaldıqda, onun olduğu yer üzrə yenidən qeydiyyata alınması tələb olunmur.

Bu rəqəmsal yanaşma, həm əcnəbilər üçün, həm də dövlət qurumları üçün prosesləri sadələşdirir, vaxt və resurslara qənaət etməklə daha səmərəli xidmət göstərilməsinə imkan yaradır.

# İqbal Məmmədovun çətin günləri

## Sabiq deputat və biznesmen ilin sonunadək 1,2 milyon manat ödəməlidir, ancaq necə?

***Milli Məclisin sabiq üzvü İqbal Məmmədov son 15 gündə ”Kaspi Yıldız” şirkətinə görə dövlətə olan milyonlarla borcunu ödəyib.***

Xatırladaq ki, adı çəkilən şirkətin təsisçilərindən biri Rafet Ekmekçioğlu özünə məxsus 50% payı digər təsisçi Məmmədov İqbal Nəriman oğluna verib. Bununla da “Kaspi Yıldız” Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin təsisçisi 100% pay ilə Məmmədov İqbal Nəriman oğlu olub.

Məmmədov 2010-cu ilin noyabrında ilk dəfə Milli Məclisə üzv seçildikdən sonra şirkətin qanuni təmsilçiliyi dəyişib. “Mən deputat olana qədər “Kaspi Yıldız” öz adıma idi. Parlament üzvü olduqdan sonra bütün biznesimi ailə üzvlərimin adına keçirdim. Deputatam deyə biznesimi yad adama bağışlayası deyildim ki...” - sabiq millət vəkili vaxtilə mediaya açıqlamasında bildirmişdi.



Qayıdaq ”Kaspi Yıldız”la bağlı külli miqdarda borc məsələsinə...

Yola salmaq üzrə olduğumuz həftə ”qaynarinfo” məlumat yayıb ki, illərdir İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə 10 milyon manata yaxın borcu olan İqbal Məmmədov parlament seçkilərindən sonra 8 milyon 123 min 438 manat 13 qəpik ödəyib.

Məlumata görə, sabiq deputata məxsus ”Kaspi Yıldız” şirkətində külli miqdarda vergidən yayınma halları qeydə alınıb.

İqbal Məmmədov deputat seçilmədiyinə görə, cinayət məsuliyyətindən azad edilməsi üçün 9 milyon 393 min 819 manat 13 qəpik vergi borcunun böyük hissəsini ödəməli olub.

Hazırda keçmiş deputata məxsus olan şirkətin 1 milyon 270 min 381 manat 90 qəpik vergi borcu qalıb. O, bu ilin sonuna qədər sözügedən borcu də ödəyəcəyinə söz verib.

Lakin deputat mandatını da itirən, üstəlik, təzəlikcə 8 milyon manatdan artıq borcu ödəyən Məmmədovun qarşıdakı iki ayda 1 milyon 270 min manat kimi iri məbləği necə ödəyəcəyi suallar doğurur. Üstəlik, unutmayaq ki, sabiq millət vəkilinə məxsus olan ”Relax” İstirahət Mərkəzinin də əl dəyişdirəcəyinə dair iddialar dolaşır. Yeni İqbal müəllimin biznes sarıdan işləri heç də qaydasında getmir. Belədə sözügedən məbləği tapmaq onun üçün asan olmaya bilər.

Onu da nəzərdən qaçırmamaq lazımdır ki, Məmmədovun borcu yalnız yuxarıda sadalananlarla da bitmir. Keçmiş deputata aid edilən ”Lerik Broyler” MMC-nin 22.560,79 manat, həmçinin digər şirkətlərinin də külli miqdarda vergi borcu olduğuna dair də KİV-də məlumatlar yayılıb. İddialara görə, həmin şirkətlər Milli Məclisin sabiq üzvünün qardaşının və qohumlarının adına rəsmiləşdirilib.

İstisna deyil ki, İqbal müəllim bu borc bataqlığından qurtulmaq üçün biznesinin böyük hissəsindən əl çəkmək məcburiyyətində qalsın.

Unutmayaq ki, vergi məsələlərinə görə keçmiş deputat ölkə miqyasında böyük ajiotaj doğuran qalmaqal yaşamışdı. Bir az da dəqiqləşdirsək, hələlik ona məxsus olan “Relax” istirahət mərkəzində operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi cəhdi dava-dalaşla nəticələnmişdi. Belə ki, 2019-cu ilin avqustunda istirahət mərkəzini işlədən deputatın oğlu Mirhəmid Nərimanlı, qardaşı oğlu Orxan Nərimanlı və bacısı oğlu Pərviz Vergilər Nazirliyinin əməkdaşlarına hücum çəkərək onları döymüşdü.

Üç il öncə isə İqbal Məmmədovun adı kredit borcu qalmaqalı ilə gündəmə gəlmişdi. Bəzi KİV-lərdə ölkədəki banklardan birinin onu və qardaşı Çingiz Məmmədovu borc müqaviləsi üzrə mübahisəyə görə məhkəməyə vermisilə bağlı məlumat yayılmışdı. Bankdan iş məhkəmədə olduğu üçün açıqlama verilməsi məqsədəuyğun sayılmamışdı.

Sabiq deputatın özü isə bildirmişdi ki, heç bir banka kredit borcu yoxdur: “Mən Məmmədov İqbal Nəriman oğlu indiyədək heç bir bankdan kredit götürməmişəm. Çingiz Məmmədov mənim qardaşımdır. Ola bilər məsələ onunla bağlıdır, amma bunu mənim adıma yazmaqda məqsəd nədir?! Bunu yazanlar Azərbaycanda jurnalistikaya aidiyyatı olmayan, hansısa məqsədlər üçün bu sahəyə gələnlərdir. Məqsədlərinə çatmayanda da bu üsullara əl atırlar”.

Lakin iddialar bu yöndə idi ki, Məmmədov millət vəkili seçildikdən sonra öz biznesi ilə bağlı işləri rəsmi şəkildə ailə üzvlərinə, o cümlədən qardaşına ötürdüyündən kredit də elə onun adına götürülüb və sonradan borcun ödənilməsində gecikmələr baş verib, nəticədə iş məhkəməyədək gedib çıxıb. Məsələnin ictimailəşməsinin ardından isə həmin kredit borcunun ödənildiyinə dair təsdiqlənməyən məlumatlar da dolaşırdı.

Bir sözlə, keçmiş deputat bir müddətdir ki, borc məsələləri ilə bağlı qalmaqallar yaşayır. Hazırda onun biznes sarıdan işlərinin qaydasında olmadığını və deputat mandatını da itirdiyini nəzərə alsaq, qalan borclarını necə ödəyəcəyi maraq doğurur.

O da maraqlıdır ki, İqbal müəllimlə bağlı yerli KİV-də son zamanlar bu mövzuda çox yazılsa da, nəyə görəsə münasibət bildirməməyə, susqunluq nümayiş etdirməyə üstünlük verir.

**Sənan Mirzə**

# Adil Kərimli ümidləri doğrultmur

## Mədəniyyət Nazirliyində hələ də Əbülfəs Qarayev "külələri əsir"

***Son zamanlar mədəniyyət Nazirliyinin keçirdiyi tenderlərlə bağlı mediada müxtəlif iddialar səsləndirilir. Bu iddialardan anlaşılan odur ki, sabiq nazir Əbülfəs Qarayevin zamanında dövlət satınalmalarının obyektivliyi, şəffaflığı və effektivliyi ilə bağlı şübhələr aktuallığını qoruyur, necə deyərlər, "köhnə hamam, köhnə tas".***

Oktyabrın 2-dən 8-dək Bakıda keçirilən X Beynəlxalq Kitab Sərgisinin gedişində yaşanan qalmaqal isə yuxarıdakı iddialarda həqiqət payının xeyli yüksək olduğunu düşünməyə əsas verir. Belə ki, sözügedən tədbirin 3-cü günündə sərgiyə qatılan ölkə nəşriyyatları sensasion bəyanatla çıxış etdilər. Bəyanatda vurğulanırdı ki, "son illər Mədəniyyət Nazirliyi hər il bir dəfə kitabxana fondunu zənginləşdirmək məqsədi ilə, məhdud sayda da olsa, Azərbaycan nəşriyyatlarından kitab alırdı. Bu, milli kitabın və nəşriyyatlarımızın dəstəklənməsi baxımından əhəmiyyətli bir addım idi. Biz, Azərbaycan nəşriyyatları, mədəni irsimizin inkişafına töhfə verən yerli kitabların kitabxanalarda təmsil olunmasının əhəmiyyətini yüksək qiymətləndiririk. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "Antiinhisar fəaliyyəti haqqında" qanunun 44.2-ci və 44.3-cü maddələrini əsas götürərək kitab alışını dayandırmışdır. Dövlət Xidməti iddia edir ki, kitab alışı tender yolu ilə həyata keçirilməlidir. Xidmətin nəzərinə çatdırmaq istəyirik ki, intellektual mülkiyyətin məsulu olan əsərlər, kitablar tender yolu ilə alına bilməz; "Dövlət satınalmaları haqqında" qanun özü bunu qadağan edir". Bəyanatda o da vurğulanırdı ki, məlum qərara nəşriyyatlar etirazlarını bildirir və satınalmanın təkrar nəzərdən keçirilməsini Mədəniyyət Nazirliyi və adı çəkilən Dövlət Xidmətindən tələb edirlər, əks təqdirdə, sərgini tərk edəcəklər, yəni boykot qərarı verəcəklər.

10-cui dəfə keçirilən Bakı Beynəlxalq Kitab Sərgisinin yubiley ilində baş verən bu qalmaqal sözügedən mötəbər tədbirin adına və missiyasına əlbəttə ki, yaraşmırdı. Bunu Mədəniyyət Nazirliyində yaxşı bildikləri üçün dərhal hərəkətə keçildi və qurum nəşriyyatlara qarşı yanlış, haqsız qərardan geri çəkildi. Düzdür, ilk baxışdan belə anlaşılırdı ki, yaranan qalmaqalın başlıca səbəbkarı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətidir. Lakin əldə etdiyimiz məlumata görə sonradan məsələnin heç də belə olmadığı ortaya çıxıb. Aydın olub ki, məlum satınalma ilə bağlı nazirlikdən Dövlət Xidmətinə daxil olan sənədlərdə çatışmazlıq varmış. Bu isə bilərəkdən edilib: Mədəniyyət Nazirliyində bəzi vəzifəli şəxslər alışın tender yolu ilə həyata keçirilməsi üçün xeyli "əmək" sərf ediblər, məqsəd isə bir çox digər satınalmalarda olduğu kimi yenə də hansısa şirkəti qalib elan eləməkmiş.



Belə olmasaydı, problem əsasən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən qaynaqlansaydı cəmi 1 gün sonra " kitab alışı tender yolu ilə həyata keçirilməlidir" qərarından daşınmaq mümkün idimi?

Bəli, təəssüf ki, Mədəniyyət Nazirliyinin tenderləri ilə bağlı xəbərlərə göz atdıqda belə bir qənaətə gəlmək mümkündür: təəssüf ki, Adil Kərimlinin nazir təyinatı satınalmalarla bağlı Əbülfəs Qarayev və Anar Kərimovun nazir olduğu dövrdə adi hal alan qeyri-şəffaflığı və qeyri-obyektivliyi hələ də aradan qaldırmayıb. Hətta yuxarıda haqqında bəhs etdiyimiz sərginin təşkili ilə bağlı tenderin özü də müzakirə mövzusudur. Sosial şəbəkələrdə yazılanlardan belə aydınlaşır ki, X Bakı Beynəlxalq Kitab Sərgisi ötən illərdən həm zəif təşkil edilib, həm də nəşriyyatların gözləntilərini doğrultmayıb, kitabsevərlərin iştirakı yetərli səviyyədə olmayıb. Bunun səbəbləri başqa yazının mövzusu olduğundan hələlik nöqtə qoyuruq...

Qayıdaq Mədəniyyət Nazirliyinin keçirdiyi satınalmalarla bağlı şəffaflıq və obyektivlik şübhələrinə...

Belə şübhələrin getdikcə artmasından iki nəticəyə gəlmək mümkündür: ya adı çəkilən nazirlikdə tender siyasəti hələ də Əbülfəs Qarayevin, Anar Kərimovun kadrları tərəfindən həyata keçirilir, ya da Adil müəllimin kadrları özlərindən əvvəlkilərin yolu ilə getməyə üstünlük verirlər.

Uzağa getməyək, elə bu ilin avqustunda məlum oldu ki, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən 2022-2023-cü illərdə həyata keçirilmiş dövlət satınalmaları həmin dövrə qüvvədə olan hüquqi aktların tələblərinin bir sıra hallarda pozulması ilə müşayiət olunub. 2022-ci il üçün satınalma planı müvafiq qaydada tərtib edilərək yerləşdirilsə də, 2023-cü ildə bu həyata keçirilməyib.

Hesablama Palatasının audit yoxlaması nəticəsində o da aydınlaşmışdı ki, 2022-ci il üçün nəzərdə tutulan və icra edilən satınalmalar fərqlənib. 2023-cü ildə isə satınalma metodları tətbiq edilməyib, həyata keçirilən alışlar satınalma metodlarının tətbiqini tələb edən məbləğdən aşağı olmaqla bağlanan müqavilələr əsasında icra olunub. İdarə tərəfindən 2023-cü ildə dövlət tələbatının ödənilməsi məqsədilə bağlanan müqavilələr dövlət büdcəsinin və büdcədənkənar fəaliyyətdən gələn vəsaitlər üzrə olmaqla ayrı-ayrılıqda icra edilib. Bəzi hallarda bu yanaşma eyni predmetlər üzrə alışların satınalma metodlarının tətbiqindən yayınmağa şərait yaradıb. Bir halda müvafiq razılıq alınmadan müqavilə bağlanılmaqla vəsait icra edilib. Auditor Vəfa Mütəllimovanın fikrincə, İdarə tərəfindən funksional, o cümlədən büdcədənkənar fəaliyyətin təşkili, dövlət satınalmalarının həyata keçirilməsi, dövlət əmlakının idarə olunması fəaliyyəti qüvvədə olan hüquqi aktlara uyğun deyil.

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

Sadəcə onu vurğulayaq ki, Mədəniyyət Nazirliyində müəyyən vəzifəli şəxslərin dövlət satınalmaları ilə bağlı hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə hərəkət etməsinə, nəhayət, "dur" deyilməlidir. Əks halda birinci dəfə Əbülfəs Qarayevin, ikinci dəfə Anar Kərimovun zamanında bu nazirlikdə gerçəkləşdirilmiş anti-korrupsiya əməliyyatının üçüncü dəfə təkrarlanması qaçılmaza çevriləcək...

***Sənan Mirzə***



## TDT ölkələrinin ekologiya nazirlərinin ilk iclası Bakıda keçiriləcək

***Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin ekologiya nazirlərinin ilk iclası keçiriləcək.***

"Unikal" bu barədə qurumun mətbuat xidmətinə istinadən xəbər verir.

Görüş noyabrın 20-də baş tutacaq və COP29 qlobal iqlim konfransı zamanı olacaq.

Bu iclasın türk dövlətləri arasında ekoloji əməkdaşlığın gücləndirilməsi üçün mühüm platformaya çevriləcəyi gözlənilir. Bu da TDT-nin ətraf mühitin qorunması və "yaşıl iqtisadiyyat"ın inkişafı ilə bağlı məqsədlərinə nail olunmasına töhfə verəcək.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) 2024-cü il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək.

## Bu il Ağdamın üç kəndinə köç baş tutacaq

***"Bütün işğaldan azad edilmiş ərazilərdə köç plana uyğun şəkildə həyata keçirilir".***

"Unikal" xəbər verir ki, bu sözləri APA-ya açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O qeyd edib ki, həmçinin Ağdam, Xocavənd və Füzuli rayonlarında da köç prosesi davam etdirilir: "Bu ilin sonuna qədər Ağdam rayonunun üç kəndinə köç prosesi başlanılacaq. Söhbət Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərindən gedir. Bundan başqa, Ağdamın Qərvənd kəndində bərpa işləri aparılır. Ağdam şəhərinin ikinci məhəlləsində tikinti işləri başlanılıb. Bu məhəlləyə gələn ilin sentyabr-oktyabr aylarında köç nəzərdə tutulur".

E.Hüseynov bildirib ki, Füzuli şəhərinin Dövlətyarlı və Pirəhmədli kəndlərinin torpaq işləri yekunlaşdırılıb, bu yaxınlarda evlərin tikintisi ilə bağlı layihələrə start veriləcək.

## Xətai rayonunda sürüşmənin səbəbi məlum oldu



***Xətai rayonu ərazisində baş verən sürüşməyə səbəb son günlər yağan yağışlar nəticəsində yamacdakı asılı süxur kütləsinin uçması olub.***

"Unikal" xəbər verir ki, bunu Geoloji Kəşfiyyat Agentliyinin idarə heyətinin sədri Əli Əliyev deyib.

O bildirib ki, Agentliyin mütəxəssisləri tərəfindən aparılan araşdırma və monitorinqlərin nəticələrinə görə, ərazidə ciddi təhlükə yoxdur.

"Uçmuş süxur kütləsinin ərazidən götürülməsi və yamacın hamarlanması işləri aidiyyəti qurumlar tərəfindən həyata keçiriləcək".

36_27 IYUl-QARA.qxd 10/17/2024 10:00 PM Page 11



## Yevlax şəhərində “Nəqliyyatın işi haqqında” 6 aylıq statistika

***2024-cü ilin yanvar-iyun aylarında fəaliyyət göstərən nəqliyyat müəssisələr tərəfindən göstərilən xidmətlərdən əldə olunan gəlirin həcmi (fiziki şəxslər də daxil olmaqla) 4548,2 min manat və ya əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə 13,0 faiz çox olmuşdur.***

2024-cü ilin yanvar-iyun aylarında avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 877,0 min ton yük daşınmışdır ki, bu da ötən ilin yanvar-iyun aylarına nisbətən 4,9 faiz çox olmuşdur. Bu nəqliyyat növündə yük dövriyyəsi ötən ilin yanvar-iyun aylarına nisbətən 5,6 faiz artaraq 67,6 mln ton-km təşkil etmişdir.

Cari ilin yanvar-iyun aylarında avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 10025,0 min sərnişin daşınmış və bu daşınmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz artmışdır. Sərnişin dövriyyəsi ötən ilin yanvar-iyun aylarına nisbətən 5,5 faiz artaraq 34,3 mln sərnişin-km təşkil etmişdir.

2024-cü ilin yanvar-iyun aylarında nəqliyyat müəssisələrində çalışanların orta sayı ötən ilin yanvar-iyun aylarına nisbətən 7,3 faiz azalaraq 181 nəfər təşkil etmişdir. Nəqliyyat müəssisələri üzrə orta aylıq nominal əməkhaqqı ötən ilin yanvar-iyun aylarına nisbətən 99,2 faiz və ya 606,5 manat təşkil etmişdir.

*Hazırladı,*
*Yevlax Şəhər Statistika İdarəsinin baş məsləhətçisi*
*Şəfaqət Ələkbərova*

## 2024-cü ilin 6 ayında Yevlax şəhəri üzrə ödənişli xidmətlər və iaşənin vəziyyəti

***2024-cü ilin yanvar-iyun aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisədə real ifadədə 3,9 faiz artaraq 46161,1 min manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 10663,6 min manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 23,1 faizini təşkil etmişdir.***

2024-cü ilin yanvar-iyun aylarında hər bir rayon sakini orta hesabla 328,5 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 18,0 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər ödənişli xidmətlərin başqa növləri ilə müqayisədə məişət xidmətləri sahəsində daha geniş fəaliyyət göstərmiş, onlar tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 5362,3 min manat və ya 11,6 faiz olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında ictimai iaşə dövriyyəsi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 5,4 faiz artaraq 10007,9 min manat olmuşdur.

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 0,1 faizi hüquqi şəxs statuslu müəssisələrin, 99,9 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisədə 0,3 min manat çox olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında fiziki şəxslərin iaşə şəbəkələrində 9994,3 min manatlıq və ya 2023-cü ilin yanvar-iyun aylarında faktiki qiymətlərlə 682,7 min manat və ya 7,3 faiz, müqayisəli qiymətlərlə isə 5,4 faiz çox iaşə xidməti göstərilmişdir.

*Hazırladı,*
*Yevlax Şəhər Statistika İdarəsinin məsləhətçisi*

**ELAN**

**Heydərov Ziya Fikrət oğluna verilmiş 1017049A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# Həbsdəki sabiq icra başçısının adı yeni qalmaqalda

## İsmayıl Vəliyevin qanunsuz olaraq satdığı torpaqların sahibləri şok ittihamlar irəli sürdülər

***Qobustan rayonu, Nərimankənd kənd sakinlərindən iddiaçılar-Əlikram Cahangirovun, Namiq Alkişiyevin, Mirəli Şıxəliyevin, Elman Məmmədovun, Abdullayev Tofiq və Babayar Hümbətovun nümayəndəsi Həmidov Məmməd Əhməd oğlu tərəfindən ölkə rəhbərliyinə, bir sıra aidiyyatı dövlət qurumlarının rəhbərlərinə və mətbuat orqanlarına sensasion müraciət ünvanlanıb.***

Müraciətin səbəbi isə Nərimankənd kənd sakinlərinə dövlət tərəfindən əvəzsiz olaraq verilmiş pay torpaqları rayonun sabiq icra başçısı olmuş İsmayıl Vəliyev tərəfindən ayrı-ayrı fiziki şəxslərə qanunsuz olaraq satılmasıdır. Bundan başqa, o, torpaqların bir hissəsi üzərində bir neçə inzibati binanın tikintisinə icazə vermişdir. ”Halbuki, belə olan halda torpaqlar qanunvericilik əsasında dövlət tərəfindən əvəzi ödənilməklə geri alınması qaydası həyata keçməli idi. Bu baş vermədiyinə görə mülkiyyətlərindən qanunsuz məhrum edilmiş sakinlər məhkəmələrə üz tütmuşlar. Hadisələrin sonrakı inkişafı barədə sakinlərin məhkəmə instansiyalarında nümayəndəsi olmuş Məmməd Həmidov sakinlərin ərizələrinin yazılma motivi haqında yuxarı orqanlara müraciət etmişdir” deyə şikayətçilər vurğulayıblar.

Müraciətdə iddiaçılardan Cahangirov Əlikram İsmi oğlunun 60, Alkişiyev Namiqin, Hümmətov Rəfail Babayar oğlunun və Məmmədov Elman Rüstəm oğlunun hər birinə məxsus 48, Şıxəliyev Mirəli Nuralı oğluna məxsus 72 sot torpaq sahəsinin onların xəbəri və razılığı olmadan İsmayıl Vəliyevin zamanında Qobustan Rayon İcra Hakimiyyətinin qanunsuz göstərişilə zəbt edildiyi də aydınlaşıb. Digər cavabdeh - Qobustan Şəhər Bələdiyyəsinin (Vasif Novruzovun sədrliyi zamanı) saxta qərarları ilə iddiaçılara məxsus pay torpaq sahələrinin hissə-hissə satıldığı və mənimsənildiyi də aydınlaşıb. Məhkəmə çəkişməsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinədək gedib çıxıb. Hazırda iş Avropa Məhkəməsində baxılmaqdadır və sonuncu mərhələdədir. Şikayətçilər Qobustan Rayon İcra Hakimiyyətinə və Qobustan Bələdiyyəsinə qarşı “Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsi zamanı vurulmuş maddi zərərin ödənilməsi” tələbinə dair iddia qaldırıblar.

Müraciətdə daha bir ilginc məqam var: belə məlum olur ki, hazırda Nərimankənd kəndinin icra nümayəndəsi sakinləri zorakılıqla Avropa Məhkəməsinə etdikləri müraciəti geri götürməyi tələb edir. Hətta iddiaçıları aldadaraq onlara guya iddia etdikləri 0.48 ha pay torpaq sahəsinin əvəzinə eyni ölçüdə və kateqoriyada torpaq sahəsinin ayrılması barədə barışıq sazişi imzalatdırıb. ”Halbuki bu adamların heç biri latın qrafikasında yazıb oxuya bilmədiklərinə və savadsız olduqlarına görə heç bir əsası olmayan izahatı müxtəlif təzyiqlər göstərərək yazdırmaqla onların Avropa Məhkəməsinə verdikləri şikayətin geri götürülməsini hədəfləmişlər” deyə şikayətçilərin qanuni nümayəndəsinin mediaya müraciətində vurğulanıb.



Uzun sözün qısası, hazırda həbsdə olan sabiq icra başçısı İsmayıl Vəliyevin adı ətrafında yeni qalmaqal ortaya çıxıb.

Xatırladaq ki, İsmayıl Vəliyev 2005-2011-ci illərdə Qobustan rayonunun, 2011-ci ildən 2020-ci ilin fevralında həbs olunana qədər isə Neftçalanın icra başçısı olub.

O, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Neftc?alada keçirilən əməliyyat zamanı 2020-ci ilin fevralında saxlanılıb. Bunun ardınca isə vəzifəsindən uzaqlaşdırılıb. Sabiq icra bas?c?ısı və onun və digərləri haqqında ilkin istintaq do?vru? u?c?u?n 4 aylıq həbs-qətimkan tədbiri sec?ilib. Həmin ilin iyun ayında həmin müddət 3 ay artırılıb.

Sonda məhkəmə Cinayət Məcəlləsinin 179 (mənimsəmə və ya israf etmə), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 311-ci (ru?s?vət alma) maddələri ilə İ.Vəliyevə 10 il, onun keçmiş birinci müavini Vurğun Əkbərov 9 il, digər keçmiş müavini Gültəkin Sadıqova 6 il 6 ay, eləcə də Neftçala rayonunun digər vəzifəli şəxslərindən Memarlıq və Tikinti Şöbəsinin müdiri Vüqar Nağıyevə 8 il, rayon Təhsil Şöbəsinin müdiri Əjdər Kərimova 8 il 6 ay, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərova 8 il, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidova isə 8 il 3 ay həbs hökmü çıxarıb. Sonradan Şirvan Apellyasiya Məhkəməsinin yekun qərarı ilə İsmayıl Vəliyev 9 il 6 ay, Əjdər Kərimov və digərləri 8 il, Gültəkin Sadıqova 6 il müddətinə azadlıqdan məhrum ediliblər. Bu ilin fevralında isə İsmayıl Vəliyev və onunla birgə məhkum edilən şəxslərin kassasiya şikayətlərinə baxılmış, Ali Məhkəmədə keçirilən iclasda apellyasiya instansiyasının qərarı dəyişdirilmişdi. Qərara əsasən, İsmayıl Vəliyevin cəzası 6 il 2 aya, Vurğun Əkbərovunku 6 ilə, Əjdər Kərimovun cəzası 5 il 10 aya, Vüqar Nağıyevinki 5 il 8 aya, Telman Zahidov və Anar Cəfərovun cəzaları 5 il 6 aya, Gültəkin Sadıqovanın cəzası isə 4 il 6 aya endirilmişdi.

İ.Vəliyev istər Qobustanda, istərsə də Neftçalada icra başçısı postlarını tutarkən haqqında ən çox korrupsiya iddiaları və vətəndaşların, sahibkarlara qarşı qanunsuzluq ittihamları irəli sürülən rayon rəhbərlərindən biri idi. Onunla bağlı cinayət işinin materialları iddia və ittihamların əsassız olmadığını ortaya qoydu, lakin belə görünür, sabiq icra başçısının ictimaiyyət tərəfindən bilinməyən qanunsuz əməlləri də az deyil...

*Sənan Mirzə*

**5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın dünyaya inteqrasiyası sürətlə irəliləyir

## Azər Badamov: "Azərbaycanın BRİKS-ə daxil olması, regionda strateji əməkdaşlığı gücləndirərək enerji, nəqliyyat və təhlükəsizlik sahələrində yeni imkanlar yarada bilər"

***Azərbaycanın dünya birliyinə inteqrasiyası uğurla davam edir. Ölkəmiz dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınır. Artıq Azərbaycanın iştirakı olmadan, regionda hər hansı bir strateji layihənin reallaşması mümkün deyil. Bu ilin sentyabr ayının 16-da Azərbaycan və BRİKS-in təsisçilərindən biri olan Braziliya kənd təsərrüfatı sahəsində anlaşma memorandumu imzalayıb.***



Bu memoranduma əsasən, tərəflər kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün birgə müəssisə yaratmağı, qarşılıqlı investisiyalar cəlb etməyi, həmçinin kənd təsərrüfatı sənayesi sahəsində elmi və texnoloji yenilikləri birgə təşviq etməyi planlaşdırırlar. BRİKS Bakının əsas ticarət tərəfdaşlarını və Azərbaycan iqtisadiyyatının əsas investorlarını birləşdirir. Azərbaycan coğrafi mövqeyinə və inkişaf etmiş logistika infrastrukturuna görə BRİKS ölkələrinin ərazisindən keçən əsas nəqliyyat marşrutlarının kəsişmə mərkəzidir. Ekspertlər bildirirlər ki, Azərbaycanın BRİKS-ə qoşulması ölkə iqtisadiyyatına əhəmiyyətli üstünlüklər gətirə bilər. Təşkilata üzvlüyün əsas aspektlərindən biri Azərbaycan malları üçün satış bazarlarının genişləndirilməsi imkanıdır. Rusiya, Çin, Hindistan və Braziliya kimi böyük iqtisadiyyatları olan BRİKS ölkələri enerji, kənd təsərrüfatı və emal sahələrində Azərbaycanın ixracına kömək edə bilər. Hazırda Azərbaycan BRİKS-i yaradan ilk 5 ölkədən 3-ü -Rusiya, Çin və Hindistanla fəal ticarət aparır. Ölkəmiz BRİKS-ə üzv olmaqla bu böyük bazardan daha səmərəli istifadə edərək ixracı bir neçə dəfə artıra bilər. Artıq Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib və 4-cü ən böyük xarici ticarət tərəfdaşıdır.Bu ilin əvvəlinə Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 43,5 faiz artaraq 3,1 milyard dollara çatıb. BRİKS platforması, həm də iri neft və qaz istehsalçılarını bir araya gətirməyə imkan verir. Bu, Azərbaycan üçün böyük perspektivlər açır. Çünki ölkəmiz Xəzər dənizi regionunda əsas neft və qaz ixracatçılarından biridir. BRİKS-ə qoşulmaq Azərbaycana böyük siyasi və ya iqtisadi güzəştlərə getmədən beynəlxalq arenada mövqelərini möhkəmləndirmək imkanı verəcək.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, BRİKS öz sıralarını günü-gündən genişləndirən böyük iqtisadi güc və siyasi təsir platformasına çevrilməkdədir.

"Dünya nizamında baş verən ədalətsizliklər və Qərbin dünya iqtisadi sisteminə təsir imkanlarından istifadə edərək digər ölkələri öz iradəsinə tabe etmək cəhdləri BRİKS təşkilatına qlobal marağın artmasına səbəb olur. BRİKS-ə üzvü ölkələr dünya əhalisinin 41%-ni, dünya ticarət dövrüyyəsinin 18%-ni əhatə edir. Bu gün BRİKS-ə üzv dövlətlər yüksək texnologiyalara, təbii və əmək resurslarına malikdir. O cümlədən BRİKS dövlətləri BMT Təhlükəsizlik Şurasında, G 20-də, Afrika Birliyində, Qoşulmama Hərəkətində, Şanxay Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq qurumlarda təmsil olunurlar. Bu da BRİKS-in ancaq iqtisadi yox, həm də yeni bir siyasi gücün meydana gəlməsi kimi dəyərləndirilə bilər. BRİKS-in beynəlxalq münasibətlər sistemində rolu və çəkisi günü -gündən artmaqdadır. Həm də BRİKS-in nizamnaməsində qarşılıqlı hörmət, ədalət və bərabərlik üzərində əməkdaşlığın genişləndirilməsi əsas məqsəd kimi qeyd olunmuşdur", deyə deputat bildirib.

Həmsöhbətimiz qeyd edir ki, BRİKS-ə üzv olması Azərbaycana bir çox üstünlüklər qazandıracaq. Belə ki, bu təşkilata üzvülüyün ölkəmizə verəcəyi töhfələri bir neçə istiqamətə ayıra bilərik. Onun sözlərinə görə, bu, iqtisadi inteqrasiyanı sürətləndirəcək: " BRİKS iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrdən ibarətdir. Azərbaycanın bu təşkilatda iştirakı ticarət və investisiya imkanlarını artıraraq iqtisadi diversifikasiyaya kömək edə bilər. Bu təşkilatda Çin, Rusiya, Braziliya, Hindistan və Cənubi Afrika kimi qlobal iqtisadi nəhənglər birləşib. Bu gün qlobal bazarlara çıxış imkanlarının genişləndirilməsi vacib məsələlərdəndir. Çünki görürük ki, Qərb öz istəklərini digər regionlarda reallaşdırmaq üçün təsir imkanı kimi sanksiyaların tətbiqini önə çəkir. BRİKS ölkəmizə ixrac bazarlarının diversifikasiyası imkanını qazandıracaq. Bu da Qərbin sanksiya ilə ölkəmizi hədələmək imkanlarının aradan qalxmasına yol açacaq. Həm də bu təşkilata üzv ölkələrin investisiya yatırmaq imkanları genişdir. Ölkəmiz xarici investisiyalar üçün açıqdır və bu təşkilata üz olmağımız investisiya axınını sürətləndirəcək".

Deputat deyir ki, BRİKS-ə üzvlüyümüz siyasi gücümüzü də artıracaq.

"BRİKS qlobal məsələlərdə daha çox söz sahibi olmağa imkan tanıyır. Azərbaycanın burada olması beynəlxalq platformalarda daha güclü bir səs əldə etməyə kömək edə bilər. Dünya beşdən böyükdür. BRİKS iqtisadi birlik olmaqla yanaşı həm də dünya siyasi sitemində çəkisi olan ölkələri birləşdirir. Bu baxımdan bu təşkilatda olamğımız beynəlxalq platformalarda sözümüzün gücünü artıracaq"- Azər Badamov bildirib.

Deputat onu da əlavə edib ki, BRİKS-ə qoşulmağımızın regional təsirləri də var. Belə ki, Azərbaycanın BRİKS-ə daxil olması, regionda strateji əməkdaşlığı gücləndirərək enerji, nəqliyyat və təhlükəsizlik sahələrində yeni imkanlar yarada bilər: "Azərbaycan Çinin müəllifi olduğu "Bir kəmər, bir yol layihəsi"nin iştirakçısıdır. Ölkəmizin iştirak etdiyi Orta dəhliz marşurutu Asiya ilə Avropa arasında yük daşımalarda ən səmərəli marşurut olduğu özünü təsdiq etmişdir. BRİKS-ə üzvülüyümüz Çinlə Avropa ölkələri arasında iqtisadi əməkdaşlığın genişlənməsində ölkəmizin rolunu artıracaq. Təbii ki, bu da regionda yeni əməkdaşlıq və təhlükəsizlik mühütinin formalaşmasına yol açacaq".

Bu həm də müxtəlifilik və dayanıqlılıq baxımından önəmlidir. A. Badamovun sözlərinə görə, müxtəlif ölkələrlə əməkdaşlıq Azərbaycanın iqtisadiyyatını daha dayanıqlı hala gətirə və müxtəlif bazarlarla əlaqələri artırmağa kömək edə bilər.

Deputat qeyd edib ki, Azərbaycanda texnologiya və innovasiya üçün BRİKS müsbət gələcək vəd edir: "BRİKS ölkələri arasında texnoloji mübadilə və innovasiyaların inkişafı Azərbaycanın bu sahələrdə irəliləməsinə dəstək ola bilər. Bu gün iqtisadi inkişafı texnologiyalar və innovasiyalarsız təsəvvür etmək mümkün deyil. BRİKS-ə daxil ölkələrdə bu sahələr sürətlə inkişaf edir. Azərbaycan da bu təşkilata üzv olmaqla ölkə iqtisadiyyatına yüksək texnologiyaların və innovasiyaların cəlb edilməsi prosesini sürətləndirə bilər. BRİKS-ə üzv olmağımız Azərbaycanın beynəlxalq mövqelərini gücləndirə və daha geniş iqtisadi imkanlar açmağa kömək edə bilər".

Qeyd edək ki, BRİKS müxtəlif qitələrin dörd dövləti - Braziliya, Rusiya, Hindistan və Çin tərəfindən yaradılıb. 2010-cu ildə Cənubi Afrika assosiasiyaya qoşulub. Daha dörd ölkə - BƏƏ, İran, Misir və Efiopiya isə bu ilin əvvəlində təşkilata qoşulub. Bundan əlavə, dünyanın 20-dən çox ölkəsi assosiasiyaya üzv olmaq üçün müraciət edib. Bu ilin iyulun 3-4-də Azərbaycan Prezidenti İlham Əliyev BRİCS-in Astana sammitində iştirak edib. Burada Prezident də ölkəmizin BRİCS-ə qəbul olunmasının vacibliyini qeyd edib.

***Gülayə Mecid***



# Unudulmaz hünər sahibi

***İkinci Qarabağ müharibəsində neçə-neçə igid Vətən övladların qanı bahasına xalqımız möhtəşəm qələbə qazandı.***

Bununla da kimliyimiz, mənliyimiz bütün dünyaya bəlli oldu. Azərbaycanın yeni,şanlı tarixinə qızıl hərflərlə həkk olunan 44 günlük haqq savaşımızda canını doğma Vətəninə fəda edən şəhidlərdən biri də 2001-ci ildə Cəlilabadın Həziabad kəndində dünyaya göz açan Rahim Yalçın oğlu Quliyev idi. 19 yaşında şəhidliyi elobaya şəraf gətirən Rahim vaxtsız aramızdan getsə də, indi bütün Azərbaycan xalqı adını böyük iftixarla, qürurla çəkir. Həm də dövlət tərəfində layiq görüldüyü "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", eləcə Xocavəndin, Kəlbəcərin, Cəbrayılın azadlığına görə medallar onun müharibə meydanında göstərdiyi igidliyin, mərdliyin, ən əsası doğma torpağına olan sonsuz məhəbbətin gözəl nümunəsidir.

Bəli, qısa ömrü Azərbaycana sonsuz sevgi mücəssəməsi olan Rahim Quliyev bir müddət sonra Cəlilabaddan Sabunçu rayon, Maştağa qəsəbəsi, Savalan yaşayış massivinə köçüb. Yaşa dolduqca gözəl mənəvi keyfiyyətləri ona hörmət gətirib. Həyat amalı Vətəninə, xalqına təmənnasiz xidmət olan Rahim peşə məktəbində oxuyub. Avtomobillərin təmiri üzrə çilingər ixtisası üzrə təhsil alıb. Yaxşı işlər görüb və sağlam əqidəsi çoxuna dayaq olub.

Vətənpərvər gənc işğalçı düşməndən qisas almaq məqsədilə 2019-cu il iyulun 11-də hərbi xidmətə yollanıb. O, nizam-intizamı, verilən hər bir tapşırığı ləyaqətlə, vicdanla yerinə yetirdiyi üçün əsgərlər arasında seçilib. Cəbhə xətində yağı ilə qarşı-qarşıya dayanıb, Vətənini göz-bəbəyi kimi qoruyub. Həmçinin dığaların təxribatının qarşısının alınmasında bir-neçə dəfə iştirak edib və gücünü onlara göstərə bilib. İşğal altında olan əzəli Qarabağımızın azadlığı uğrunda düşmənlə sona qədər vuruşub qisas alacağına and içib.

Vətən müharibəsi başlanan günü igid, cəsur əsgər qəlbində intiqam qəzəbi ən qaynar nöqtələrdə erməni quldurlarına qarşı vuruşa girib. Düşmənə ciddi itkilər verməklə bir-neçə ağı müharibədən zəfərlə çıxıb. Rahim Quliyevin axırıncı döyüş yeri isə Füzuli-Cəbrayıl istiqamətində olub. Burada son damla qanına kimi vuruşaraq, şəhidlik zirvəsinə ucalıb. Və yazdığı qəhrəmanlıq tarixi ilə əbədi olaraq milyonların ürəyinə köçüb.

***Zəfər Orucoğlu, AJB üzvü***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

36_27 IYUl-QARA.qxd 10/17/2024 10:27 PM Page 13



# Udu musiqimizə yenidən qazandıran, azyaşlı övladını itirəndən sonra kədərli notlara köklənən Əhsən Dadaşov...

***Azərbaycan mədəniyyətində əvəzsiz xidmətləri olan, özünəməxsus üslubu ilə dinləyicilərini heyran edən, musiqimizi modern notlarla birləşdirərək, öz yaradıcılığında bir körpü quran sənətkar Əhsən Dadaşov... Fitri musiqi istedadına malik görkəmli tarzən Əhsən Dadaşov zəngin yaradıcılıq yolu keçib, musiqi folklorumuzu zənginləşdirən bir çox mahnı və rəqs havaları bəstələyib. Onun bəstələdiyi bir çox mahnılar bu gün də dillər əzbəridir. Əhsən Dadaşov musiqi mədəniyyətimizdə bir fenomen olub. Onun yaradıcılığı XX əsr musiqi mədəniyyəti tariximizin ən parlaq səhifələrindən birini təşkil edir. O, milli instrumental sənətinin inkişafı və təbliği sahəsində mühüm xidmətlər göstərib.***

Mərhum tarzən, Azərbaycan SSR əməkdar artisti Əhsən Dadaşov 1924-cü il avqustun 16-da Bakı şəhərində anadan olub. Və bu adı Əhsənə atasının doğma dayısı Mirzə Əbdülxaliq Yusif verib. O Mirzə Əbdülxaliq ki, Ələğa Vahidin ilk ustadı olmuşdu və Ələğaya da Vahid təxəllüsü ondan yadigar qalmışdı. İlk oğlu dünyaya gəlincə Ələbbas şad xəbəri çatdırmaq üçün sevincək dayısıgilə gedir. Mirzə Əbdülxaliq bacısı oğlunun ilk övladının oğlan olmasını eşidincə "Əhsən!" deyir. "Dayı, həm də məsləhətə gəldim, uşağın adını nə qoyaq?" "Necə yəni nə?! Dedim axı: "Əhsən!". Bununla da görkəmli tarzənə Əhsən adı verilir.



O, Bakıdakı 22 saylı orta məktəbdə təhsil alıb. 8-ci sinifdə oxuyarkən yolu təsadüfən 1 nömrəli Azərbaycan Dövlət musiqi texnikumunun (indiki Bakı Musiqi Kolleci) yanından düşür. Divara vurulmuş "Tar sinfinə qəbul" barədə qeydlər var idi. Lakin valideynləri onun həkim olmasını istəyirdi. Əhsən Dadaşov isə ailəsindən gizlin sənədlərini tar sinfinə verir. 1938-ci ildə tar sinfinə qəbul olaraq, burada Səid Rüstəmov, Mənsur Mənsurov, Ənvər Mənsurov kimi dəyərli musiqiçilərdən dərs alıb.

Səid Rüstəmov Əhsəndəki işığı o hələ yeniyetmə olarkən sezmiş və qayğılarını bu istedadlı uşaqdan əsirgəməmiş nəciblərdən idi. Özü söyləyirdi ki, Əhsəni hələ musiqi texnikumundan gözü tutubmuş və 1940-cı ildə özünün rəhbərlik etdiyi xalq çalğı orkestrində işə götürür. Əhsənin 16 yaşı varmış, heç pasport almayıbmış və bunu Səid müəllimə irad da tuturlarmış.O, dərhal cavablarını verirmiş: "Əhsənin hələ pasportu yoxdursa da, o, sənət pasportunu çoxdan alıb". O, daha sonra Azərbaycan Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsini bitirib.

1937-ci ildə atası Mirzəli Əli Abbas "xalq düşməni" kimi Sibirə sürgün edilir, sonrakı taleyindən xəbər alınmır. Daha sonra atasını həbs etməyə gələnlər arasında olan iki erməni Əhsən Dadaşovun anasının zinət əşyalarını oğurlayıblar.



Əhsən Dadaşov 30-cu illərin sonlarında Bakıda keçirilən açıq konsertlərdən birində "Şur" muğamını çalır. Konsertdə iştirak edən dahi bəstəkar Üzeyir Hacıbəyov onun ifasını bəyənərək "Əhsən sənə, Əhsən!" deyir.

İlk dəfə Azərbaycan musiqi alətləri sırasına udu tarzən məşedi Cəmil Əmirov daxil edib. Lakin Sovet hakimiyyətinin müəyyən dövrlərində bu musiqi aləti unutdurulub. Ancaq Əhsən Dadaşovun sayəsində "Ud" yenidən Azərbaycan musiqisinə qazandırılıb. O, özü bu musiqi alətində ifa edirdi, həm də ansamblın ifasına daxil edilmişdi. Əhsən Dadaşov ilk dəfə solist kimi ud aləti ilə radio üçün bir sıra melodiyalar ifa etmişdi. 50-ci illərdə orkestrdə Saz Partiyalarının solo hissələrini də səsləndirib.

1959-cu ildə Azərbaycan SSR Əməkdar artisti adını alıb. Bir çox xarici ölkədə Azərbaycan musiqi mədəniyyətini təbliğ edib. Sənətkar ümumilikdə 30-a yaxın melodiya və mahnının müəllifidir. Onların sırasında "İlk eşqimin nazlı yarı", "Peyman etdik" və "Biri sənsən, biri mən"in adlarını çəkmək olar.



Şəhid Milli Qəhrəman, general-mayor Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova açıqlamasında bildirmişdi ki, Milli Qəhrəmanımızın ən sevdiyi "Biri sənsən, biri mən" mahnısını da mahir tarzən Əhsən Dadaşov bəstələyib.

"Biri sənsən, biri mən" mahnısının ilk ifaçısı, məşhur xanəndə, mərhum Xalq artisti İslam Rzayev olub. Deyilənə görə, bu mahnı ilk dəfə İslam Rzayev tərəfindən ifa olunandan sonra Əhsən Dadaşov o qədər təsirlənib ki, göz yaşlarını saxlaya bilməyib. Mahnıya qulaq asan mərhum şair Bəxtiyar Vahabzadə isə heyrətini belə dilə gətirib: "Musiqiyə qulaq asdım və dəli oldum. Musiqinin özü mənim şerimi elə açıq və həzin pıçıldayırdı kig Allah insaf versin, Əhsənə, o, adi bəstəkar deyil, möcüzədirg".



Əhsən Dadaşov bir sıra rəng və təsniflərin müəllifidir. Onun muğama həsr etdiyi 20-yə yaxın rəng var. Lentə yazdırdığı muğamlar teleradionun qızıl fondunda qorunb saxlanılır. 1960-cı ildə teleradio verilişləri komitəsinin nəzdində Xalq Çalğı Alətləri ansamblı yaradıb və ömrünün sonuna kimi həmin ansambla rəhbərlik edib. Ansambla ilk notlu ifanı o gətirib.Ə.Dadaşov 60-cı illərin əvvəllərində Rəşid Behbudovla 4 aya yaxın İranın 20-yə qədər şəhərində 100-ə qədər konsert veriblər. Qədir Rüstəmov, Yalçın Rzazadə, Niyaməddin Musayev kimi ifaçıların tanınmasında böyük rolu olub.

Əhsən Dadaşov Qədir Rüstəmovun 17 variantda yazılan "Sona Bülbüllər"ni Teleradio Komitəsinə təqdim edib. Əhsən Dadaşov hər zaman gənclərə xüsusi diqqət göstərib. Onların inkişafı üçün əlindən gələni əsirgəməyib. Günlərin birində Əhsən Dadaşov cavan bir oğlanı yazılışa gətirir. Hamı cavanın səsinin ecazkar olduğunu ilk andaca duyur. Lakin bu cavanın təcrübəsizliyini, ram edilməmiş köhlən kimi ipə-sapa yatmazlığını, lent yazılışına hazırsızlığını, ansamblın müşayiəti ilə oxumaqda tam səriştəsizliyini də ilk andaca hiss edirlər. Axşam saat 6-da başlayırlar və gecə saat 12-ni keçənədək dönə-dönə eyni mahnını lentə yazırlar. Bunu da canlı şahidlər xatırlayırlar ki, dəfələrlə eyni musiqini çalırmışlar, Qədir oxuyurmuş, aradakı muğam parçasında Əhsən yenə təkrar-təkrar gəzişmələrini edirmiş və hamıdan fərqli olaraq, hər dəfə də gözü yaşarırmış. Həm də hər dəfə başqa cür çalırmış. Bir neçə gün sonra həmin lent radioda səslənib. Və möcüzə kimi qarşılanıb. Həmin vaxt Əhsən Dadaşov "Qədir Rüstəmov başqa aləmdir!" ifadəsini işlətmişdi.

Qədir Rüstəmov isə həmişə "Mən Əhsən Dadaşova bütün ömrüm boyu borcluyam" deyərmiş.

Ustad sənətkar kamança ifaçısı Qəribə xanımla həmin orkestrdə tanış olub. Onlar 1954-cü ildə ailə həyatı qurublar. Sənətkar 26 yaşında dünyasını dəyişmiş müəllimi Ənvər Mansurovun adını ilk övladına verir. 1963-cü ildə tarzənin 8 yaşlı oğlu Ənvər qan xərçəngindən dünyasını dəyişir. Bu faciə onu sarsıdır və yaradıcılığına da təsir edir. Bundan sonra yaradıcılığında nisgilli notlar üstünlük təşkil edib. Əhsən Dadaşov ikinci oğlunun da adını "Ənvər" qoyaraq sevdiyi iki insanın da adını yaşadır.

Atası kimi, qəlbini musiqiyə vermiş qızı, pianoçu Xanım Məhərrəmova xatirələrində bildirib: "Atam məni də, qardaşımı da həddən artıq sevirdi, çox nəvazişkar, qayğıkeş idi. Ömründə bizə güldən ağır söz deməzdi. Ümumən evdə onun hirsli davranmasını, danışmasını heç görməmişdik. Bir dəfə isə necə oldusa, mən stula qalxıb rəhmətlik uşağın bufetin gözündəki çərçivəli şəklini götürdüm əlimə. Atam bunu görəndə dərhal dalğınlaşdı, rəngi dəyişdi, şəkli alıb acıqlandı ki, niyə götürmüsən?!. Bir neçə il əvvəl atamın tarının qılafını açıb tozunu siləndə, adətən, mizrablar, simlər qoyulan balaca sandıqçanı da açdım. Atamın vəfatından bəri heç buna fikir verməmişdim. Gördüm ki, tar qabının həmin balaca sandıqçasında rəhmətlik qardaşımın şərfinin bir parçası var. Sən demə, atam bunu nakam qardaşımın nişanəsi kimi həmişə özü ilə gəzdirirmiş".



Professor, AMEA-nın həqiqi üzvü, millət vəkili Rafael Hüseynov deyir: "1970-ci illərin başlanğıcında unudulmaz Əhsən Dadaşovla tanışlığımızın ilk günlərində onun öz sənət taleyi ilə bağlı söylədiyi vacib bir mülahizənin içərisində həm Mirzə Mansurun, həm də Ənvər Mansurovun adları vardı. O vaxt tələbə idim, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində oxuyurdum və fakültəmiz yerləşirdi ovaxtki Kommunist, indiki İstiqlaliyyət küçəsində, hazırkı İqtisadiyyat Universiteti ilə Əlyazmaları İnstitutunun binalarının aralığında. "Bakı Soveti" (indi "İçərişəhər") metrosunun yanında, Filarmoniya bağında o dövrdə ziyalıların daimi toplaşdığı bir çayxana vardı ki, ora elm, sənət adamları, qəzetçilər, yazı-pozu əhli mütəmadi yığışardı. O çayxana, bir növ, həmin illərin ziyalı klubu kimi bir məkan idi.





Əhsən müəllimlə də orada tanış olmuşdum. Yadımda həmişəlik qalacaq ifadəni də qonşu masadakı həmsöhbətləri ilə təmasda ikən işlətmişdi və tanış olmasaq da, ertəsi günü ona yaxınlaşıb özümü təqdim etmişdim, dünən niyə elə söyləməsinin səbəbini soruşmuşdum. Əhsən müəllim ötən gün bir neçə musiqiçi, radio və qəzet işçisi ilə çay içərkən söz- sözü gətirəndə fikirli-fikirli dillənmişdi: "Bir gün müəllimim mənə dedi ki, mənim müəllimim sənin müəllimindən yaxşı olub. Amma mən müəllimim kimi çalmadım. Çalış sən də özün kimi çal". Bu, gənc Əhsənə müəlliminin, atası Mirzə Mansur olan Ənvər Mansurovun nəsihəti idi".

R.Hüseynov bildirib ki, Əhsən Dadaşovu təkrarlamaq çətin idi: "Hacı Məmmədov kimi nəhəngi təkrarlayanlar vardısa, nə sağlığında, nə özünün olmadığı vaxtlarda Əhsəni eyni ilə təkrarlayan, ya ona çox bənzəyə bilən ikinci sənətkar görünməyib. Nəinki başqaları, heç Əhsən özü də özünü təkrar edə bilmirdi. Bunu da mənə tələbəykən apardığım müsahibəsində demişdi: "Hər muğamda, təbii ki, özümə məxsus olan müəyyən barmaqlarım, keçidlərim var. Ancaq eyni şeyi lap əlli dəfə məşq eləsəm də, hər dəfə səhnəyə çıxanda, fərqli alınır. O anda, çalanda bunu hiss etmirəm. Amma həmin çalğı lentə yazılıbsa, sonra dinləyəndə görürəm ki, özümdən asılı olmayaraq, hansısa yeni incəliklər, gözəlliklər öz-özünə gəlib. Əhsənin yaratdığı "Rast", "Humayun", "Rahab", "Şur", "Segah" rəngləri elə bitkin musiqi quruluşuna, daxili dramaturgiyaya malikdir".



Ud Azərbaycanda orta əsrlərdə çox sevilmişdi. Ud təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə əsas musiqi aləti idi. Çünki bəstəkarlar o dövrün musiqi yazısı şərtlərinə uyğun olaraq, əsərlərini kağıza məhz udun pərdələrinə əsasən köçürürdülər. Orta çağda ud bu gün fortepianonun yerinə yetirdiyi vəzifəni icra edirdi. Elə Əhsən Dadaşov da udu Türkiyə səfərindən Azərbaycana gətirmişdi. İlk ud çalan da özü oldu.

Əhsən Dadaşov oğlunun vəfatından 13 il sonra 52 yaşında xərçəng xəstəliyindən vəfat edir. Əhsən Dadaşovun vəfatından sonra 1976-cı ildə ansamla onun adı verilib. Hazırda "Xatirə" xalq çalğı alətləri ansamblı (bədii rəhbəri Adil Bağırov) Əhsən Dadaşovun adını daşıyır.

***Zaurə Əmirova***

***Bu yazı "Azərbaycan Mətbuat Şurasının, "ƏHSƏN" Yaradıcılıq Təşəbbüsləri Mərkəzinin və Xəzər Media Mərkəzinin Əməkdar artist Əhsən Dadaşovun yaradıcılığı ilə bağlı birgə yazı müsabiqəsinə təqdim olunur.***

# Yevlaxda 2024-cü ilin birinci yarısı üçün kənd təsərrüfatı, ümumi məhsul və əhalinin gəlirlərinin statistikası belə olub



***Yevlax rayonunun iqtisadiyyatında kənd təsərrüfatı prioritet sahədir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı pol oynayır.***

2024-cü il bir sıra çətinliklərə baxmayaraq rayonun kənd təsərrüfatı üçün əsasən uğurlu keçir. Aqrar islahatların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində torpağın və əmlakın xüsusi mülkiyyətə verilməsi, qısa və uzunmüddətli kreditlərin verilməsi, Aqrolizinq müəssisələrinin fəaliyyətə başlaması və s. kimi tədbirlərin həyata keçməsi kənd təsərrüfatında çalışanların maddi marağının artmasına stimul yaratmış və ayrı-ayrı məhsul növlərinin əkininin artmasında əsaslı irəliləyişlərə səbəb olmuşdur.

Rayonun iqtisadiyyatında yazlıq bitkilərin əkini müvəffəqiyyətlə başa çatmışdır. Kənd təsərrüfatı müəssisələri, əhali və kəndli fermer təsərrüfatları əlverişli hava şəraitindən maksimum istifadə edərək yazlıq bitkilərin əkinini yüksək aqrotexniki qaydada və vaxtında başa çatdırmışlar. Belə ki, cari ilin birinci yarısında 33993,5 hektar sahədə yazlıq və payızlıq bitkiləri əkilmişdir. Keçən il yazlıq və payızlıq bitkilərin əkin sahəsi 36372,81 hektar olmuşdur. 2023-cü illə müqayisədə 2024-cü il 2379,31 hektar az yazlıq və payızlıq bitkiləri əkilmişdir.

Daha bir önəmli fakt isə ondan ibarətdir ki, kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən birdəfəlik olaraq maddi yardım göstərilmişdir. Fermerlər əkin subsidiyasının bir hissəsini (25%-ni) birbaşa nağdlaşdıra biləcək, yerdə qalan vəsait (75%) isə nağdalaşdırmadan, sadəcə gübrə, pestisid, toxum və ya ting alışı zamanı hesabdan-hesaba köçürəcək. Kənd təsərrüfatı istehsal vasitələrini satan təchizatçılar EKTİS-də qeydiyyatdan keçməlidir. Pambıq istehsalçılarına isə hər kqr pambıq üçün 0,17 manat yardım edilir.

2024-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 2023-cü ilə nisbətən 6,5 faiz az payızlıq və yazlıq bitkilər əkilmişdir. 2024-cü ilin məhsulu üçün 5558,6 hektar sahədə payızlıq buğda, 6501,4 hektar sahədə isə arpa səpini aparılmışdır. Əvvəlki illə müqayisədə 3049,13 hektar az buğda, 385,68 hektar az arpa səpini aparılmışdır.

2024-cü ildə 343,0 hektar qarğıdalı, 995,0 hektar günəbaxan, 122,0 hektar çəltik, 150,0 hektar kartof, 576,5 hektar tərəvəz, 230,0 hektar bostan, 16630,0 hektar çoxillik yem bitkiləri, 5,0 hektar noxud, 30,0 hektar darı, 2465,1 hektar pambıq, 45,0 hektar lobya, 341,9 hektar şəkər çuğunduru olmaqla yazlıq bitkiləri əkilmişdir.

2023-cü ilə nisbətən 3,7 hektar qarğıdalı, 485,0 hektar günəbaxan, 7,7 hektar kartof, 10,2 hektar tərəvəz, 5,0 hektar bostan, 30,0 hektar çoxillik yem bitkiləri, 2,0 hektar darı, 1,7 hektar lobya, 87 hektar çəltik, 2,0 hektar noxud, 576,8 hektar pambıq çox əkilmiş, şəkər çuğunduru isə 44,9 hektar az olmuşdur.

01 iyul 2024-cü ilin məhsulu üçün əkin sahələrindən 20746,0 ton buğda, 19698,0 ton arpa, 974,7 ton kartof, 2976,4 ton tərəvəz, 591,0 ton bostan, 3400,2 ton meyvə, 340,8 ton giləmeyvə, 241977,5 ton yonca otu, 329,6 ton darı, 12,5 ton noxud, 164,4 ton lobya istehsal olunmuşdur ki, bu da 2023-cü ilin yanvar-iyun aylarına nisbətən 84,9 ton bostan, 55,0 ton kartof, 1265,3 ton yonca otu, 30,7 ton meyvə, 0,3 ton giləmeyvə, 155,7 ton tərəvəz, 228,2 ton darı, 5,5 ton noxud, lobya isə 84,6 ton çox tədarük olunmuşdur. 6499,5 ton buğda, 756,6 ton arpa az tədarük olunmuşdur.

Əkin sahələrindən bitkiçilik məhsullarının toplanması davam edir. 2024-cü ildə barama tədarükü 5634,35 kq olmuşdur ki, bu da 2023-cü ilə nisbətən 41,6 faiz və ya 4013,45 kq az tədarük olmuşdur. 2023-cü ildə barama tədarükü 9647,8 kq omuşdur.

Cari ilin iyul ayının 1-i vəziyyətinə ət istehsalı (diri çəkidə) 4736,0 ton, süd istehsalı 20882,0 ton, yumurta istehsalı 10193 min ədəd, yun isə 352,0 ton olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 12,0 ton, süd istehsalı 51,0 ton, yumurta istehsalı 24 min ədəd, yun isə 1,0 ton artmışdır. Rayonda 69592 baş iri buynuzlu mal-qara, o cümlədən 32064 baş inək və camışlar, 170436 baş qoyun və keçi, 457381 baş quş olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında şəhər iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 5,4 faiz və ya faktiki qiymətlərlə 11893,0 min manat azalaraq 207804,6 min manat olmuşdur. 2023-cü ilin müvafiq dövründə bu göstərici 219697,6 min manat təşkil etmişdir. ÜMB-ın 54,9 faizi və ya 114107,1 min manatı istehsal, 45,1 faizi və ya 93697,5 min manatı isə xidmət sahələrində yaranmışdır.

Keçən ilin müvafiq dövründə istehsal 127097,9 min manat, xidmət isə 92599,7 min manat təşkil etmişdir. Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 15305,3 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 7,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 82628,2 min manat və ya 39,8 faiz, tikinti sahəsində 16173,6 min manat və ya 7,8 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 87465,5 min manat və ya 42,1 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 4548,2 min manat və ya 2,2 faiz, informasiya və rabitə sahəsində 1683,8 min manat və ya 0,8 faiz olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin rəisi***
***Saleh Cəfərov***




# Ermənistanın Gəncədə törətdiyi növbəti terrordan dörd il ötür

***İkinci Qarabağ müharibəsi dövründə Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən beşinci dəfə raket hücumuna məruz qalmasından dörd il ötür.***

"Unikal" xatırladır ki, 2020-ci il oktyabrın 17-də gecə saat 1 radələrində düşmən cəbhə zonasından kənarda yerləşən, Gəncə şəhərinin mərkəzindəki Cavadxan qəsəbəsini SCUD/Elbrus əməliyyat-taktiki ballistik raketləri ilə növbəti dəfə xain və qəddarcasına atəşə tutub. Düşmənin hücumu zamanı yaşayış evləri tamamilə dağılıb, sakinlər dağıntılar altında qalıb.

Nəticədə 15 nəfər şəhid olub, 55-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Şəhid olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var.

Faktla bağlı Azərbaycan Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7 (qəsdən iki və ya daha çox şəxsi öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.

Bundan başqa, Ermənistan silahlı qu?vvələri həmin gün - oktyabrın 17-də gecə saat 1 radələrində növbəti dəfə Cənubi Qafqazın ən bo?yu?k istilik elektrik stansiyası olan Mingəc?evir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləs?ən, iri sənaye s?əhəri Mingəc?evirə raketlər atıb. Raketlər Ordumuzun Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən zərərsizləs?dirilib.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları 2023-cü il oktyabrın 3-də separatçıların keçmiş rəhbəri Araik Arutyunyanı saxlayıblar. Aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində A.Arutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycanın Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə də əsaslı şübhələr müəyyən edilib. Ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilib. Hazırda Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə ümumilikdə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edilib. Nəticədə 27 nəfər şəhid olub, 175 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsində ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, ümumilikdə 12 292 yaşayış və qeyri yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib, 1 018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilib.

36_27 IYUI-QARA.qxd 10/17/2024 10:01 PM Page 15



## Bayden Almaniyaya gedəcək



***ABŞ prezidenti Co Bayden Almaniyaya təxirə salınmış səfərini bu həftə edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ağ Evin sözçüsü Karine Jean-Pierre açıqlama verib.

Mətbuat katibi Jean-Pierre açıqlamasında Baydenin cümə günü Almaniyaya səfər edəcəyini və səfər zamanı danışıqların əsas mövzusunun Ukrayna olacağını bildirib.

***Zərifə Nağıyeva***

## Zelenski ABŞ-dən pul istəməyib - İllər sonra ilk

***Ukrayna prezidenti Volodimir Zelenski sentyabrda səfəri zamanı ABŞ hökumətindən pul istəməyib.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri ABŞ senatorlarına istinadən məlumat dərc edib.

"İndi Zelenski ehtiyac duyduğu hər şeyə sahibdir. Ona görə də o, pul istəməyib",- materialda deyilir.

Senatorlar qeyd ediblər ki, Ukrayna lideri "birbaşa əlavə maliyyə tələb etməyib". Eyni zamanda,



Amerikanın Ukraynaya yardımı 2025-ci ilin əvvəlində başa çatacaq. Materialın müəllifləri qeyd ediblər ki, hazırda dəstəyin uzadılması ilə bağlı heç bir rəsmi təsdiq yoxdur.

Zelenski sentyabrın 18-də Nyu-Yorka gedib. Orada Ukrayna lideri BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirak edib. Vaşinqtonda Zelenski amerikalı həmkarı Co Bayden ilə danışıqlar aparıb.

***Gülayə Mecid***

## Əraqçi Misirdə həmkarı ilə regionu müzakirə etdi

***İranın xarici işlər naziri Seyid Abbas Əraqçi Qahirədə Misirin xarici işlər naziri Bədr Əbdül Ati ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə İran KİV məlumat yayıb.

Tərəflər mühüm regional məsələlər və hadisələr haqqında fikir mübadiləsi aparıb.

Əraqçi bundan əvvəl Qəzza və Livandakı son hadisələr və müharibənin dayandırılması səyləri ilə bağlı regional məsləhətləşmələr çərçivəsində Livan, Suriya, Səudiyyə Ərəbistanı, Qətər, İraq, Oman və İordaniyaya səfər edib və həmin ölkələrin yüksək vəzifəli şəxsləri ilə söhbət edib. həmin ölkələrin.

***Ağarza Elçinoğlu***

## "Makron hörmətsizlik edib" - Netanyahudan irad

***"Fransa prezidenti Emmanuel Makron İsrail dövlətinin BMT-nin qətnaməsi əsasında yarandığını bəyan etməklə hörmətsizlik nümayiş etdirib".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu İsrailin baş naziri Benyamin Netanyahu deyib.

"Bu, tarixdən xəbərsizliyi və hörmətsizliyi göstərir. BMT yəhudi xalqının dövlət hüququnu tanıdı, lakin təbii ki, onu yaratmadı. BMT 1948-ci il müharibəsində iştirak etməyib, lakin Holokostdan və Vişi rejimindən sağ çıxan insanlar iştirak edib. Sonuncu halda söhbət İkinci Dünya Müharibəsi zamanı alman işğalı dövründə fəaliyyət göstərən Fransanın kollaborsionist hökumətindən gedir. Buna görə də BMT-nin İsrail dövlətini yaratdığını söyləmək tarixin üzücü təhrifidir", - Netanyahu "Le Figaro" qəzetinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, İsrail Müstəqillik Müharibəsi nəticəsində dövlətçilik əldə edib.

Daha əvvəl "Le Parisien" qəzeti mənbələrə istinadla yazıb ki, Nazirlər Şurasının qapalı iclasında Makron "Netanyahu BMT-nin qətnaməsi əsasında ortaya çıxan yəhudi dövlətinin yaranma şəraitini xatırlamalıdır", - deyib.



***Gülayə Mecid***

## Ermənistan 44 günlük müharibədə ölənlərə görə anım günü keçirməyəcək



***Ermənistan hökuməti 27 sentyabrı 44 günlük müharibədə ölənlərin anım günü elan etməkdən çəkinib.***

"Unikal" xəbər verir ki, bu barədə qərar Ermənistan hökumətinin bugünkü iclasında qəbul edilib.

"Ermənistan Respublikasının bayramları və yaddaqalan günləri haqqında" qanuna dəyişiklik müxalifətin "Hayastan" fraksiyasının deputatı Qeqam Nazaryan tərəfindən təklif edilib: "Mən təklif edirəm ki, sentyabrın 27-si həlak olanların anım günü kimi qeyd olunsun".

Lakin hökumət yanvarın 28-də Ordu Gününün qeyd olunduğunu əsas gətirərək, deputatın bu təklifini rədd edib.

***Ağarza Elçinoğlu***

## Şimali Koreya bu ölkə ilə əlaqəni tamamilə kəsib

***KXDR cənub qonşusu ilə ərazi demarkasiyası siyasətinin tərkib hissəsi olaraq Koreya yarımadasının şərqində və qərbində Koreya Respublikası ilə avtomobil və dəmir yolu əlaqəsini tamamilə kəsib.***

"Unikal" xəbər verir ki, bu barədə Koreya Mərkəzi Xəbər Agentliyi (KCNA) məlumat yayıb.

Bildirilir ki, Koreya Xalq Ordusunun Baş Qərargahı açıqlamasında "Cənub sərhədinin şərq və qərb rayonlarında KXDR ərazisində Cənubi Koreyaya gedən avtomobil və dəmir yollarının tamamilə fiziki olaraq kəsilməsi" üçün tədbirlər görülüb", - qeyd olunub.



Oktyabrın 15-də ölkənin şərqində Qanqvon əyalətinin Qamho və qərbində Donnae kəndində uzunluğu 60 m olan yol hissələri partladılıb. KCNA izah edir ki, bu qərar konstitusiyanın tələblərinə və "düşmən qüvvələrin" təxribatları nəticəsində Koreya yarımadasında hərbi-siyasi "müharibə həddinə çatan vəziyyətə" uyğun olaraq qəbul edilib. Torpaq və Ətraf Mühitin Mühafizəsi Nazirliyi yolun partladılmasının ətraf mühitə mənfi təsir göstərmədiyini təsdiqləyib. Səlahiyyətlilər qeyd ediblər ki, partlayış nəticəsində nəqliyyat kommunikasiyaları "əsaslı şəkildə kəsilib".

***Gülayə Mecid***

## Samvel Balasanyanın həbsi barədə qərar qəbul edildi

***Ermənistanın Gümrü şəhərinin keçmiş meri Samvel Balasanyanın həbsi barədə qərar qəbul edilib.***



"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Balasanyana qarşı torpaqları cinayət yolu ilə özgəninkiləşdirdiyinə görə dövlət cinayət işi başlanıb.

Onun kiçik oğlu Xaçatur Balasanyan da iş üzrə təqsirləndirilən şəxslər arasındadır.

***Ağarza Elçinoğlu***

## Yenə İsrailin İrana hücum edəcəyi anonsunu verdilər

***İsrail yaxın günlərdə İrana hücum edə bilər, lakin hədəflərlə bağlı qərar hələ verilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Washinton Post" İsrail rəsmilərinə istinadən məlumat yayıb.

"İsrail rəsmilərinin bildirdiyinə görə, İranda hücumun hədəfləri ilə bağlı yekun qərar hələ verilməyib, lakin yaxın günlərdə hücum gözlənilir", - nəşr yazır.

ABŞ rəsmiləri WP-yə bildiriblər ki, ABŞ prezidenti Co Bayden və vitse-prezident Kamala Harris Yaxın Şərqdə alovlanan münaqişənin prezidentlik yarışının son həftələrində sakitləşə biləcəyinə ümid edirdilər, lakin İsrailin yeni hərbi hücumları bunu demək olar ki, mümkünsüz edir.

Oktyabrın 1-də İran İsrailə yüzlərlə raket atıb. Onların əksəriyyəti ələ keçirilib. İsrail tərəfi İranın nüvə obyektlərinə zərbə endirmək variantı da daxil olmaqla, buna cavab verəcəyini vəd edib.



Bildirək ki, bir sıra ABŞ mətbu orqanları tez-tez İsrail və İran arasında müharibənin başlanacağı barədə məlumat dərc edirlər.

***Gülayə Mecid***

36_27 IYUI-QARA.qxd 10/17/2024 10:01 PM Page 16



# Karateçilərimiz "Avrasiya Kuboku 2024" beynəlxalq festival-turnirdə 12 medal qazandılar

***2024-cü ilin 11-13 oktyabr tarixlərində Rusiya Federasiyasının Rostov şəhərində döyüş sənətləri (koşiki karate-do idman növü) üzrə "Avrasiya Kuboku 2024" beynəlxalq festival-turnir keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Şorinciryu Kenkokan Karate-do Koşiki Karate Federasiyasından məlumat verilib.

Bildirilib ki, adıçəkilən turnirdə kata və kumite növləri üzrə yarışlarda federasiyanın baş məşqçisi Nazim Mövsümzadənin rəhbərliyi ilə Azərbaycan Şorinciryu Kenkokan Karate-do Koşiki Karate Federasiyasının 3 məşqçi (Nazim Mövsümzadə, Sevinc Mövsümzadə, Kənan İsmayılzadə) və 10 idmançıdan ibarət yığma komandası da iştirak edib və hər zaman olduğu kimi ölkəmizin idman şərəfini layiqincə qoruyaraq qürurverici nailiyyətlərlə Vətənə qayıdıb.



Kubok yarışlarında 7 iştirakçı dövlət yer alıb. Rusiya, Azərbaycan, Osetiya, Özbəkistan, Qazaxıstan, Belarus və Abxaziyadan olan 500-ə yaxın idmançının da qatıldığı turnirin nəticələrinə əsasən idmançılarımız kata və kumite yarışlarında 8 qızıl, 4 gümüş və 3 bürünc medal qazanaraq komanda hesabında 1-ci yerə layiq görülüb.

# Avroliqa: "Barselona" "Monako"ya qalib gəldi

***Basketbol üzrə Avroliqada III turun oyunlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, turun son matçında İspaniya nəhəngi "Barselona" doğma meydanda "Monako" (Fransa) ilə qarşılaşıb. Görüş ev sahiblərinin 86:71 hesablı qələbəsi ilə başa çatıb.

Bu nəticədən sonra "Barselona" 2-ci, "Monako" isə 5-ci pillədə qərarlaşıb. Turnir cədvəlinə Serbiyanın "Srvena Zvezda" komandası başçılıq edir.

Turun daha əvvəl reallaşan oyunlarında "Fənərbağça" (Türkiyə) "Srvena Zvezda"nı (Serbiya) 57:76, "Anadolu Efes" (Türkiyə) "Makkabi Tel-Əviv"i (İsrail) 91:93, "Real Madrid" "Baskonia"nı 76:72 (hər ikisi İspaniya),"Partizan" (Serbiya) "Bavariya"nı (Almaniya) 86:78, "Alba Berlin" (Almaniya) "Lion-Villeurbanne"nı (Fransa) 84:79, "Olimpiakos" (Yunanıstan) "Olimpia Milano"nu (İtaliya) 89:68, "Paris" (Fransa) "Panatinaikos"u (Yunanıstan) 84:80, "Zalgiris Kaunas" (Litva) "Virtus Bolonya"nı (İtaliya) 71:68 hesabı ilə məğlub edib.



# Azərbaycanın daha 3 boksçusu Avropa çempionatının yarımfinalında

***Bolqarıstanın paytaxtı Sofiyada 23 yaşadək (U-23) boksçular arasında Avropa çempionatında 1/4 final mərhələsinin görüşləri davam edir.***

Yarımfinal gedən yolda Azərbaycan millisinin 3 idmançısı döyüşünü qələbə ilə başa vurub.

Tural Sarıyev (48 kq) 1/4 finalda Laşa Kereselidzeni (Gürcüstan) 5:0 (30:26, 30:26, 30:26, 30:26, 30:26) hesabı ilə məğlub edərək yarımfinala vəsiqə qazanıb. Boksçumuz bu mərhələdə türkiyəli Samet Oruc Salihlə döyüşəcək.

Nicat Hüseynov (51 kq) da adını yarımfinala yazdırıb. O, Rafael Serranoya (İspaniya) 5:0 (29:28, 29:28, 30:27, 29:28, 29:28) hesabı ilə qalib gələrək bu hüquqa yiyələnib. Hüseynov yarımfinalda serbiyalı Omer Ametoviçlə üz-üzə gələcək.



Komanda yoldaşlarının uğurunu Murad Allahverdiyev (80 kq) də davam etdirib. O, 1/4 finalda Matviy Rajbanı (Ukrayna) mübarizədən kənarlaşdırıb - 3:2 (30:27, 30:27, 28:29, 30:27, 28:29). Allahverdiyev növbəti sınağında serbiyalı Ahmed Mavriçlə qarşılaşacaq.

Yarımfinala yüksələn boksçularımız özləri üçün azı bürünc medalı təmin ediblər. Bu mərhələnin döyüşləri oktyabrın 17-də olacaq.

Qeyd edək ki, bir gün öncə yığmamızın boksçusu Marjona Savriyeva (50 kq) da 1/4 final görüşünü qələbə ilə başa vurub.

# "Qarabağ" "Ayaks"la oyuna itkilərlə çıxacaq

***"Qarabağ"ın futbolçusu Mateus Silva UEFA Avropa Liqasının Liqa mərhələsində "Ayaks"la keçiriləcək oyunu buraxacaq.***

Bu barədə QOL.az-a klubun mətbuat xidmətinin rəhbəri Anar Hacıyev məlumat verib.

Misli Premyer Liqasının 8-ci turunda "Sabah"la oyunda zədələnən braziliyalı müdafiəçi Niderland klubu ilə görüşə qədər də meydana çıxmağa hazır olmayacaq. Digər zədəlilər isə əvvəldən də bəlli olduğu kimi, qapıçılar Şahruddin Məhəmmədəliyevlə Amin Ramazanovdur.

Klub rəsmisi bir müddətdir zədədən əziyyət çəkən Marko Veşoviçin isə "Ayaks"la oyuna qədər sıraya dönəcəyini bildirib. Monteneqrolu müdafiəçi sabah Misli Premyer Liqasının 10-cu turunda "Kəpəz"lə keçiriləcək oyunu buraxsa da, "Ayaks"la görüşdə heyətdə olacaq.



Qeyd edək ki, oktyabrın 24-də Tofiq Bəhramov adına Respublika stadionundakeçiriləcək "Qarabağ" - "Ayaks" oyunu saat 20:45-də başlayacaq.



# "Benfika" idman yarışlarından kənarlaşdırıla bilər

***Portuqaliyanın "Benfika" klubu 3 il müddətinə bütün idman yarışlarından kənarlaşdırıla bilər.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Lissabon təmsilçisi korrupsiya və vergidən yayınmada ittiham olunur.

İddia təsdiqini taparsa, məşhur klubu 6 aydan 3 ilədək diskvalifikasiya cəzası gözləyir.

Qeyd edək ki, "Benfika"da Türkiyə millisinin iki futbolçusu - Orkun Kökçü və Kərəm Aktürkoğlu çıxış edir.

# Kerem Aktürkoğlu İspaniya nəhənginin hədəfində

***"Benfika"nın türk futbolçusu Kerem Aktürkoğlu karyerasını "Atletiko"da davam etdirə bilər.***



QOL.az xəbər verir ki, bu barədə "Diario Gol" məlumat yayıb.

"Atletiko" qış transfer pəncərəsində heyətini gücləndirmək üçün işləri davam etdirir. İspaniya təmsilçisinin siyahısında bir neçə futbolçu var. Onlardan biri də Kerem Aktürkoğludur. Madrid klubunun baş məşqçisi Dieqo Simeone 26 yaşlı hücumçunun transferini istəyir.

Qeyd edək ki, bu yay "Qalatasaray"dan "Benfika"ya keçən Kerem Portuqaliya təmsilçisi ilə çıxdığı 5 matçda 4 qol vurub və 2 qolun ötürməsini verib. Onun müqaviləsi 2029-cu ilin yayına qədərdir.

# Mbappe 6 ilədək həbs oluna bilər



***"Real"ın hücumçusu Kilian Mbappe İsveç qanunlarına görə 6 ilə qədər həbs cəzası ala bilər.***

QOL.az xəbər verir ki, bu barədə "Cerfia" məlumat yayıb. Bu cəza ittiham tərəfi fransalı forvardın zorlamada günahkar olduğunu sübut edəcəyi təqdirdə baş verəcək.

Qeyd olunur ki, Mbappenin adı faktiki olaraq işdə şübhəli şəxs kimi keçir.

Daha əvvəl məlum olmuşdu ki, İsveç polisi Mbappenin təqsirləndirildiyi təcavüz işi ilə bağlı araşdırmaya başlayıb.

Fransanın "RMC Sport" internet nəşri Kilian Mbappenin İsveçə səfəri zamanı cinsi əlaqədə olduğunu iddia edib. Qeyd olunur ki, forvard hər şeyin qarşılıqlı razılıq əsasında baş verdiyinə əmindir.

Mənbənin dediyinə görə, Mbappe Stokholmdakı oteldə gecəni birlikdə keçirdiyi gənc qadının mesajlarını da saxlayıb. Bundan əvvəl Kilianın zorlamada ittiham olunduğu bildirilirdi.